**EVDƏ QAL, SAĞLAM QAL!**

**Xalqın sosial rifahı Prezidentin prioritet siyasətidir**



Bax 2

**Leyla Əliyevanın təşəbbüsü ilə Milli Hematologiya və Transfuziologiya Mərkəzinə dərman preparatları təqdim edilib**



Bax 5



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 066 (6031) 22 aprel 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Xalqdan Prezidentə ETİMAD: “Biz həmişə Sizə güvənmişik!”



Bax 8

## Heydər Əliyev Mərkəzi top üçlüyə daxil edilib

Rusiyanın “TurStat” turizm portalı MDB ölkələrinin ziyarətlər, onlayn-turlar və virtual ekskursiyalar üçün populyar olan ən yaxşı muzeylərinin və müasir incəsənət mərkəzlərinin reytinqini təqdim edib. SİA-nın məlumatına görə, MDB-nin ən yaxşı müasir incəsənət mərkəzlərinin ilk beşliyində Minskdəki Belarus Respublikası Milli Müasir İncəsənət Mərkəzi, Bakıdakı Heydər Əliyev Mərkəzi, Nur-Sultandakı Sülh və Həmrəylik Sarayı (Piramida) və digərləri yer...



Bax 7

## Oleq Panfilov: “Ermənistanın gələcəyi olmayacaq”

“Təəssüf hissi güclənir - Ermənistan heç də müasir ölkəyə çevrilmir, öz liberal söhbətləri ilə Rusiya əyaləti olaraq qalmaqdadır”. SİA xəbər verir ki, bu fikirləri feysbuk hesabında Gürcüstanlı publisist Oleq Panfilov yazıb. Onun sözlərinə görə, əgər Ermənistan Qarabağ probleminin həllinə getməsə gələcəyi olmayacaq: “Qarabağ problemini həll...



Bax 10

## İsrailli ekspert: “İşğal edilmiş Dağlıq Qarabağda qeyri-qanuni seçkilər beynəlxalq hüququn əsas norma və prinsiplərinə ziddir”

*Bu gün, bütün dünya ictimaiyyəti planeti bürümüş dəhşətli koronavirus pandemiyasına qarşı fəal mübarizə apardığı bir vaxtda 2020-ci il martın 31-də Ermənistan Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazisi olan Dağlıq Qarabağdakı separatist, oyuncaq...*



Bax 7

## Neymar “Barselona”ya keçsə, 30 milyon avro itirəcək



*PSJ-nin futbolçusu Neymar “Barselona”ya keçəcəyi təqdirdə, maaşında ciddi azalma olacaq. Qol.az-ın “Mundo Deportivo”ya istinadən yaydığı xəbərə görə, belə ki, braziliyalı hücumçu Paris klubunun yeni müqavilə təklifini qəbul...*

Bax 16

**Yeni Azərbaycan Partiyasının İcra Katibliyində qanvermə aksiyası keçirilib**



Bax 3

**Sosial şəbəkə viruslarının növbəti biznesi - “koronavirus məhbusları”**



Bax 14

**Elektron icazə və sms xidmətindən necə faydalanırıq?**



Bax 13

# Xalqın sosial rifahı Prezidentin prioritet siyasətidir

*Prezident İlham Əliyev: "Dövlət tərəfindən 200 min deyil, 600 min aztəminatlı şəxsə 190 manat yardım göstəriləcək"*

***"Biz aztəminatlı ailələrin problemlərini daha geniş şəkildə həll etməliyik. Bu günə qədər biz nəzərdə tuturduq ki, karantin rejimi aprelin 20-dək davam edəcək, ancaq indi uzadılacaq. Yardım üçün müraciət edənlərin sayı kifayət qədər artmışdır. İndi bu təkliflər, bu sifarişlər geniş təhlil olunur və maksimum şəffaflıq təmin edilməlidir".***



Bu fikirləri Prezident İlham Əliyev aprelin 17-də Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlərinin iştirakı ilə videobağlantı formatında keçirdiyi iclasda bildirib.

Dövlətimizin başçısı deyib: "İlkin mərhələdə nəzərdə tutulurdu ki, 200 min insan dövlətdən 190 manat yardım alacaqdır. Mən hesab edirəm ki, ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayını biz 600 minə çatdırmalıyıq. Yəni, 200 min əvəzinə, 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verməlidir. Bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlardır. Onların da problemlərini dövlət öz üzərinə götürür.

Ona görə tapşırıq verirəm ki, aprel-may aylarında - iki ay ərzində 600 min insan dövlətdən ayda 190 manat alsın. Bu vəsaiti alacaq vətəndaşlardan xahiş edirəm ki, onlar ikinci ödənişi almaq üçün bank hesabları açsınlar. Birinci ödəniş bu ay veriləcək, ona görə yəqin bəzi insanların imkanı olmayacaq ki, bank hesabları açsınlar. Ancaq ikinci ödəniş may ayında veriləcək. O vaxta qədər bu 600 min insanın hər biri bank hesabı açsın və ikinci ödənişi bank köçürmə yolu ilə alsın. Bu, bizim xahişimizdir, bu, bizim tələbimizdir".

### Mövcud reallıq Azərbaycan dövlətinin neqativ tendensiyaları layiqli qarşılamaq, zamanın istənilən çağırışına cavab vermək iqtidarında və əzmində olduğunu nümayiş etdirir

Bu real amildir. Bu gün planetimiz və onun bir parçası olan Azərbaycan COVID-19 pandemiyasının yaratdığı dərin böhran və çətinliklərlə üz-üzə olsa da, Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkəmizdə görülən işlər, xüsusən genişmiqyaslı sosial dəstək tədbirləri bir çox ölkələr üçün nümunə olmaqdadır. Xüsusilə, ilk növbədə, yaranmış vəziyyətdən əziyyət çəkən vətəndaşların problemləri həll edilməsi və bu məqsədlə böyük məbləğdə vəsait ayrılıb, pandemiyaya görə öz işini müvəqqəti olaraq itirən 600 mindən çox insan dövlət tərəfindən dəstəklə təmin edilməsi real faktordur. Eyni zamanda, işsizlərlə bağlı problemlər öz həllini tapması, əhalinin sosial rifahını qorumaq üçün digər mühüm addımlar atılması, bir tərəfdən liderin siyasi iradəsi, digər tərəfdən dövlətin iqtisadi gücü sayəsində mümkün olur. Mövcud reallıq Azərbaycan dövlətinin neqativ tendensiyaları layiqli qarşılamaq, zamanın istənilən çağırışına cavab vermək iqtidarında və əzmində olduğunu nümayiş etdirir. Dövlətimiz məhz zəruri iqtisadi və maliyyə imkanlarına arxalanaraq daim ən çətin vaxtlarda xalqın rifahının qorunmasına və özəl sektorun inkişafına öz dəstəyini göstərib və göstərməkdədir.

### Aprel-may ayları üzrə 50 min ödənişli ictimai iş yerinin yaradılmasına başlanılıb

Pandemiya ilə əlaqədar əhalinin məşğulluq imkanlarının artırılması da prioritet fəaliyyət istiqamətlərindən biridir. Həmin məqsədlə məşğulluq orqanlarının fəaliyyəti gücləndirilib. DOST İş Mərkəzi vasitəsi ilə aprel-may ayları üzrə 50 min ödənişli ictimai iş yerinin yaradılmasına başlanılıb. Bunun üçün 30 milyon manat vəsait ayrılıb. Artıq 5 min şəxs işə cəlb edilib. Həmin ictimai iş yerləri əsasən dezinfeksiya, sosial xidmətlər və digər istiqamətləri əhatə edir. Ümumilikdə ictimai iş yerlərinin sayı 90 minə çatıb. Qeyd edək ki, xüsusi karantin rejimi başlayanadək 38 min şəxs bu işlərə cəlb edilib və hazırda onlar işləməyə davam edirlər. İki ay müddətinə haqqı ödənilən ictimai işlər üçün dövlət büdcəsindən 30 milyon manat ayrılıb.

Ünvanlı sosial yardım alan ailələrin sayında 10 min artım olub

Xüsusi karantin rejimi müddətində ünvanlı dövlət sosial yardımının təyinolunma müddəti bitən aztəminatlı ailələrə də bu yardımın verilməsi karantin rejimi başa çatdığı tarixdən sonrakı ayın 1-dək uzadılıb. Bunun üçün əlavə 3 milyon manat ayrılıb. Aprelin 1-dən ünvanlı sosial yardım alan ailələrin sayında 10 min artım olub. Ümumilikdə 80 min ailənin 330 min üzvü ünvanlı sosial yardım proqramı ilə əhatə olunur. Hər ailəyə düşən yardımın məbləği 222 manatdır.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, ünvanlı sosial yardım proqramının icra mexanizminin sadələşdirilməsi və yardım təyinatı şərtlərinin yumşaldılması, aztəminatlı ailələrin bu proqramdan faydalanmaq imkanlarının artırılması təmin edilir.

### Hazırda 15 mindən çox tənha yaşlı insana evlərində sosial xidmətlər göstərilir

Məlum olduğu kimi, COVID-19 infeksiyasının ölkədə yayılmasının qarşısının alınması məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən ölkədə xüsusi karantin rejiminin elan edilməsi çərçivəsində 65 yaşdan yuxarı insanların da evdən çıxması qadağan olunub. Bəs bu insanların məişət problemləri necə həll edilir? Martın 24-dən yaşı 65-dən yuxarı tənha şəxslərə evlərində sosial xidmətlərin göstərilməsi və xüsusi qayğıya ehtiyacı olan şəxslərə sosial xidmət müəssisələrində xidmət göstərilməsi işlərinə başlanılıb. Hazırda 15 mindən çox tənha yaşlı insana evlərində ev təsərrüfatı ilə bağlı işlərdə, əsas tələbat mallarının, dərman vasitələrinin alınması, kommunal ödənişlərin edilməsi kimi sosial xidmətlər göstərilir. Sosial tərəfdaşlar vasitəsilə tənha və əlilliyi olan şəxslərə artıq 17 minədək ərzaq payı verilib. Bu proses davam edir. Hazırda Dövlət Sosial Müdafiə Fondunun 9 sosial xidmət müəssisəsində 1000-dən çox şəxs stasionar şəraitdə sosial xidmətlərlə təmin olunur.

Dövlətin sosial dəstək tədbirləri yuxarıda qeyd olunanlarla məhdudlaşmır. 2020-ci il martın 1-dən etibarən əlillik müddəti başa çatan əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların əlillik müddəti xüsusi karantin rejiminin bitdiyi tarixdən sonrakı ayın 1-dək uzadılıb. On dörd min nəfəri əhatə edən bu tədbir üçün 2,6 milyon manat ayrılıb. Bu istiqamətdə daha bir tədbir isə əhaliyə güzəştli işıq limitinin aprel-may ayları üçün 100 kilovat saat həcmində artırılmasıdır. İki ayda buna 10 milyon manat vəsait tələb olunur.

Sosial dəstək tədbirlərinə, həmçinin həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi daxildir. İl ərzində bu məqsədlə 40 milyon manat vəsait nəzərdə tutulur.

Göründüyü kimi, koronavirus pandemiyası şəraitində reallaşdırılan bənzərsiz sosial müdafiə tədbirləri Prezident İlham Əliyevin "Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində vətəndaş dayanır", "Azərbaycan dövləti hər zaman vətəndaşın yanındadır" fikirlərinin bariz təzahürüdür və əməli işlərlə tamamlanır.

Bəli, budur xalqa qayğı, budur hər bir vətəndaşın Prezidenti olmaq. Çünki hər bir ölkənin sosial-iqtisadi inkişafının qiymətləndirilməsində nəzərə alınmalı olan faktorlardan biri də vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, onların təhlükəsizliyinin təmin edilməsidir. Bugünükü qlobal problem olan koronavirusla bağlı ölkə rəhbəri də öz növbəsində bütün qabaqlayıcı və operativ tədbirlər həyata keçirir. Çünki Azərbaycan güclü dövlətdir, öz vətəndaşlarını bütün növ təhlükələrdən etibarlı müdafiəsini təşkil etmək üçün zəruri potensiala malikdir. Son 16 ilin uğurları bu deyilənləri təsdiqləyir. Belə ki, 16 il öncə, 1,8 milyard dollar valyuta ehtiyatına sahib idisə, bu gün həmin rəqəm 50 milyard dollara yüksəlib. Sözsüz ki, bu ölkə Prezidenti İlham Əliyevin düşünülmüş uğurlu siyasəti nəticəsində əldə olunub.

Bəli, Azərbaycan dövləti hər zaman bütün sahələrdə öz sözünü deyir və verdiyi sözə də əməl edir. Çünki Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulmuşdur. Əminliklə demək olar ki, Azərbaycan xalqını uğurlu gələcəyə aparan bu siyasət növbəti illərdə də davam etdiriləcək, respublikamız Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayacaq və dövlət başçımızın dediyi kimi - "Əminəm ki, dövlətimiz və xalqımız bu sınaqdan da üzüağ çıxacaq".

***RƏFİQƏ KAMALQIZI***

# Yeni Azərbaycan Partiyası koronavirus epidemiyasına qarşı mübarizə çərçivəsində iri layihələrə müəlliflik edir

***Azərbaycan Respublikasında koronavirus pandemiyasının geniş yayılmaması və pandemiyanın vura biləcəyi zərərin qarşısını almaq üçün sistemli tədbirlər həyata keçirilir. Görülən tədbirlər sırasında əhalinin sosial müdafiəsinin gücləndirilməsi də xüsusi diqqət mərkəzindədir.***



Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bilavasitə təşəbbüsü və birbaşa rəhbərliyi altında epidemiyanın qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərdə yaxından və fəal iştirak etmiş, bu istiqamətdə bir sıra mühüm aksiyalar keçirmişdir.

Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyein Sərəncamı ilə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna bütövlükdə 500 000 manat, Naxçıvan Muxtar Respublikasında Koronavirusla Mübarizəyə Dəstək Fonduna isə 30 000 manat ianə etmişdir.

Yeni Azərbaycan Partiyası tərəfindən 21-29 mart tarixlərində bütün respublika ərazisində ahıl, imkansız və ehtiyacı olan 4500-dən çox ailəyə könüllülər vasitəsilə gigiyenik vasitələr çatdırılmışdır.

YAP tərəfindən aprel ayının 4-də start verilmiş və hal-hazırda davam edən növbəti aksiya çərçivəsində 4 mindən artıq ailəyə ərzaq və digər yardımlar göstərilmişdir.

Yeni Azərbaycan Partiyası və ƏƏSMN aprelin 4-də başladığı birgə sosial aksiya çərçivəsində hal -hazırki ana qədər 6 mindən çox ailəyə sosial xidmət göstərilmişdir.

# Yeni Azərbaycan Partiyasının İcra Katibliyində qanvermə aksiyası keçirilib







***Aprelin 21-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində qanvermə aksiyası keçirilib.***

Aksiyada Yeni Azərbaycan Partiyasının Bakı şəhəri üzrə rayon təşkilatlarının gəncləri iştirak ediblər.

YAP Mətbuat Xidmətinin rəhbəri, partiyanın Siyasi Şurasının üzvü Hüseyn Paşayev bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsünə qoşularaq qanvermə aksiyasını təşkil edib. Onun sözlərinə görə, hər zaman humanist, xeyirxah təşəbbüslərin müəllifi olan Mehriban xanım Əliyevanın qana ehtiyacı olan insanlar üçün belə bir çağırış etməsi də cəmiyyətimiz tərəfindən rəğbətlə qarşılanır.

Hüseyn Paşayev qeyd edib ki, YAP İcra Katibliyində təşkil olunan bu aksiya da partiya üzvlərinin vətənpərvərliyindən, onların ölkəmizdə həyata keçirilən bütün xeyirxah işlərdə fəallıq göstərməkdə maraqlı olmasından xəbər verir: "Aksiya irsi qan xəstəliklərindən əziyyət çəkən insanlara, o cümlədən talassemiya xəstələrinə böyük yardım edəcək".

B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfiziologiya İnstitutu Mərkəzi Qan Bankının müdir müavini Namirə Abbasova da Yeni Azərbaycan Partiyası İcra Katibliyində təşkil olunan qanvermə aksiyasını yüksək dəyərləndirib. Onun sözlərinə görə, partiyanın hər il belə aksiyalar təşkil etməsi çox humanist addımdır. N.Abbasova deyib ki, toplanan qanlar talassemiya, hemofiliya, digər qan xəstəliklərindən əziyyət çəkən insanlara veriləcək. Verilən qanlar laboratoriyalarda yoxlanılacaq. Yaşı 18-65 olan sağlam insanlar qan verə bilərlər. "Burada insanlar qan verməmişdən əvvəl həkim müayinəsindən keçirilirlər. İnfeksion xəstəliklər keçirmiş, şəkərli diabet, zob, ürək çatışmazlığı olan, əməliyyat keçirmiş insanlar qan verə bilməz. Qanvermənin müsbət cəhətləri də var. Belə ki, təzyiq yüksəkdirsə qan verdikdən sonra bu normallaşır, qan yaradan orqanların fəaliyyəti yüksəlir, ürək fəaliyyətinə müsbət təsir edir. Ən əsası, insanlar özlərini xoşbəxt hiss edirlər ki, qan verməklə qana ehtiyacı olan insanlar üçün yardım göstərirlər" - deyə N.Abbasova söyləyib. Qeyd edək ki, qanvermə aksiyasında ümumilikdə 40-dan çox YAP üzvü iştirak edib.

# Avropanın nüfuzlu beyin mərkəzi: İtaliya özünün Qərbdə Azərbaycanın əsas tərəf müqabili olduğunu göstərdi

***Avropanın nüfuzlu beyin mərkəzlərindən olan Avropa Xarici Əlaqələr Şurasının (ECFR) internet səhifəsində italyan və ingilis dillərində İtaliya Beynəlxalq Siyasi Araşdırmalar İnstitutunda (ISPI) və Venesiya Ka Foskari Universitetində post-sovet məkanı üzrə tədqiqatçı Karlo Frappinin "Müttəfiqliyə yaxın əlaqələr: İtaliyanın Azərbaycana və Dağlıq Qarabağ münaqişəsinə yeni yanaşması" adlı məqaləsi dərc olunub.***




Məqalədə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin cari ilin 19-22 fevral tarixlərində İtaliya Respublikasına həyata keçirilmiş dövlət səfərinin iki ölkə arasındakı münasibətlərdə keyfiyyət sıçrayışına gətirib çıxarması, İtaliyanın Azərbaycanla münasibətlərə və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair yeni baxışları və Qərbdə Azərbaycanın əsas tərəfdaşına çevrilməsi kimi məqamlar təhlil olunur.

Məqalənin Azərbaycan dilinə tərcüməsi təqdim olunur: "Müttəfiqliyə yaxın əlaqələr: İtaliyanın Azərbaycana və Dağlıq Qarabağ münaqişəsinə yeni yanaşması.

İtaliya və Azərbaycan arasındakı cari razılaşmalar iqtisadi cəhətdən mühüm olsa da, onların siyasi ölçüsü, xüsusilə Dağlıq Qarabağ münaqişəsinə münasibətdə daha də əhəmiyyətlidir.

Roma və Bakı arasındakı ikitərəfli münasibətlərdə "keyfiyyət sıçrayışı": Prezident İlham Əliyevin İtaliyaya 2020-ci ilin fevral ayındakı dövlət səfərini təsvir etmək üçün ən çox bu ifadədən istifadə olunur. Səfər Azərbaycanın müasir tarixində, beynəlxalq münasibətlərində misilsiz olmaqla özünəməxsus xarakter daşıyır. Səfər zamanı imzalanmış çoxsaylı sazişlərin İtaliya-Azərbaycan münasibətlərinə təsirini qiymətləndirməmək olduqca çətindir. İki ölkə arasında səfər zamanı imzalanmış sazişlər, eləcə də İtaliya Xarici İşlər Nazirliyinin ev sahibliyi etdiyi Biznes Forumda çıxış etmiş Prezident İlham Əliyevi müşayiət edən Azərbaycan nümayəndə heyətinin say və institusional profilindən də göründüyü kimi səfər iki ölkə arasındakı münasibətlərdə keyfiyyət sıçrayışı rolunu oynadı. Münasibətlərə Bakı tərəfindən edilmiş əhəmiyyətli siyasi investisiyanın İtaliyanın biznes dünyasında açıq-aşkar həvəslə qarşılandığı və daha da önəmlisi, İtaliya hökuməti tərəfindən də qarşılıqlı səylərin göstərildiyi bəlli olur. Rəsmi Roma münasibətlərin dərinləşdirilməsi üçün etdiklərini "çox yüksək gözləntilərin" olduğu yaxınlaşma prosesinin nəticəsi olaraq "dəqiq bir siyasi seçim" kimi xarakterizə etmişdir.

Səfəri işıqlandıran əksər italyan və əcnəbi KİV nümayəndələri sazişlərin iqtisadi ölçüsünə diqqət yetirsələr də, səfər zamanı Prezident İlham Əliyev və İtaliyanın Baş Naziri Cüzeppe Konte tərəfindən imzalanmış Çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Birgə Bəyannamə iki ölkə arasındakı münasibətləri ilk dəfə ənənəvi aparıcı qüvvə olan enerji sektorundan kifayət qədər irəli apararaq müdafiə, infrastruktur və investisiyalar kimi sahələri də ehtiva etmiş oldu. İtaliya və Azərbaycan arasındakı iqtisadi qarşılıqlı asılılığı dərinləşdirəcək Trans Adriatik Qaz Kəmərinin açılışı ərəfəsində ilk dəfə olaraq iki ölkə özlərinin adlandırdığı kimi "qarşılıqlı faydalı" tərəfdaşlığa konkret forma vermiş oldu. Bu tərəfdaşlıq çərçivəsində Bakı Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə, Roma ikitərəfli tədiyyə balansındakı böyük mənfi saldonun bərabərləşdirilməsinə ümid edir.

Buna görə də İtaliya və Azərbaycan arasında imzalanmış sazişlərin iqtisadi cəhətdən əhəmiyyəti danılmazdır. Bununla belə, məhz həmin sazişlərin siyasi ölçüsü münasibətlərdə daha böyük sıçrayışa gətirib çıxara bilər.

Bəyannamədə İtaliyanın Minsk Qrupundakı və Aİ-dəki tərəfdaşları ilə mövqelərində uyğunsuzluq diqqəti cəlb edir.

Birgə Bəyannamə Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan ərazilərini işğal edən Ermənistana qarşı Azərbaycanın iddialarını ənənəvi olaraq əsaslandırdığı beynəlxalq hüququn dayaqları olan suverenlik, ərazi bütövlüyü və milli sərhədlərin toxunulmazlığı prinsipləri əsasında sülh you ilə həllinə tərəflərin dəstəyini təsdiq edir.

Bu, Helsinki Yekun Aktının təməl prinsiplərinə istinad edilməklə Bəyannamənin siyasi əhatəsinə təsir etmədən, İtaliyanın Azərbaycan və Ermənistan arasındakı münasibətlərə yürütdüyü ekvidstansiya (bərabər məsafəlilik) siyasətindən, əhəmiyyətli dərəcədə uzaqlaşmasını göstərir. Bundan əlavə, siyasi cəhətdən həm də önəmlidir ki, Birgə Bəyannamə İtaliyanın müharibə edən tərəflərə otuz ilə yaxındır danışıqlar üzrə vasitəçilik edən özünün də üzv olduğu ATƏT-in Minsk Qrupuna açıq şəkildə istinad etmədiyi Dağlıq Qarabağla bağlı ilk bəyanatıdır. Azərbaycan hakimiyyəti hazırkı danışıqlar mexanizminin aydın şəkildə səmərəsiz və qərəzli olmasından dəfələrlə narazılığını bildirmişdir və bu da mümkün yeni və paralel danışıqlar yollarının axtarılmasını təşviq edə bilər.

Bu xüsusda, Roma Bakıya böyük jest edərək məsələ ilə bağlı aydın mövqe tutdu və müvafiq olaraq, Qərbin Şərqi Avropadakı uzadılmış münaqişələrə münasibətində ikili standartlardan çıxış etməsi ilə bağlı Azərbaycanın iddialarına cavab vermiş oldu. Bəyannamə İtaliyanın Minsk Qrupundakı və Aİ-dəki tərəfdaşları ilə mövqelərindəki uyğunsuzluğu göstərir. Həqiqətən də 2014-cü ildə Avropa İttifaqının Dağlıq Qarabağla bağlı Azərbaycanın prinsiplərini qəbul etmək istəməməsi bu ölkə ilə Assosiasiya Sazişi ilə bağlı danışıqların nəticəsiz qalmasına səbəb oldu. Bundan əlavə, bu prinsiplər hələ 2017-ci ilin fevralında başlayan yeni Aİ-Azərbaycan tərəfdaşlıq sazişi üzrə kompleks danışıqların da mərkəzində dayanır.

Buna görə də İtaliya özünün Qərbdə Azərbaycanın əsas siyasi (sadəcə iqtisadi deyil) tərəf müqabili - Prezident Əliyevin sözləri ilə desək "demək olar ki müttəfiqi" olduğunu göstərdi. Hazırda, İtaliya-Azərbaycan münasibətlərindəki keyfiyyət sıçrayışının Dağlıq Qarabağla bağlı danışıqlar üçün hər hansı konkret cəhdlə nəticələnib-nəticələnməyəcəyini demək çətindir. Bu niyyət İtaliya hakimiyyəti, milli institutları tərəfindən də davamlı olaraq dəstəklənmişdir. Eyni zamanda, Romanın Cənubi Qafqaz istiqamətində edə biləcəyi və ya fəaliyyət prioritetləri xaricində daha inamlı siyasətini təsəvvür etmək çətindir.

Buna baxmayaraq, fakt olaraq qalmaqdadır ki, İtaliyanın Azərbaycanla əlaqələrini gücləndirmək səyləri, çoxölçülü tərəfdaşlığın gücləndirilməsi perspektivində "enerjidən daha irəli getmək" yalnız iqtisadi zərurətdən irəli gəlmir. Bu, İtaliyanın artıq Aİ regional siyasətinə xələl gətirən "etimad tələ"sinin məhbusu olmaması barədə siyasi imperativi, məcburi addımdır. Roma Azərbaycanın xarici siyasətindəki əsas məsələ ilə bağlı Bakının mövqeyini qəbul etməklə keçmişdəki siyasi xətti davam etdirməmək niyyətinə açıq şəkildə işarə etmiş oldu. Bu mənada Birgə Bəyannamə tərəfləri doğru istiqamətə aparacaq kimi görünür."

# Prezidentə yazırlar:
# “Sizin rəhbərliyinizlə bu bəlaya qalib gəldikdən sonra daha neçə-neçə zirvələr fəth edəcəyik”

***Prezident İlham Əliyevin dünyada tüğyan edən koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması, insanların sağlamlığının qorunması və rifahının yaxşılaşdırılması ilə bağlı verdiyi qərarlar vətəndaşlarımız tərəfindən böyük rəğbətlə qarşılanır. Görülən işlər dövlətimizin başçısının xalqımıza diqqət və qayğısının bariz nümunəsi kimi qiymətləndirilir. Azərbaycan vətəndaşları bu diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ona ünvanladıqları çoxsaylı məktublarla ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir qismini təqdim edir.***

**Biləsuvar rayonundan Teyyub Həsənov yazır:** “Hörmətli cənab Prezident, hər zaman olduğu kimi, indiki çətin günlərdə də xalqımızın bütün təbəqələrinə, qocalara, gənclərə, xəstələrə, uşaqlara qayğınızla dəstəksiniz. COVID-19 pandemiyası demək olar ki, bütün dünyanı bürüyərək hər gün minlərlə can alır. Bunu ölkələrin gündəlik statistik göstəricilərindən də görürük. Amma Sizin düzgün siyasətiniz, görülən qabaqlayıcı tədbirlər sayəsində ölkəmizdə bu bəlanın qarşısı demək olar ki, alınıb. Bu qabaqlayıcı tədbirlər olmasaydı, nələr olacağını xəyalımа belə gətirmək istəmirəm. Hörmətli Prezident, vaxtında görülən tədbirlərə, ölkəmizi, xalqımızı qoruduğunuza görə Sizə dərin minnətdarlığımızı bildiririk. İnşallah, bu bəla, qara bulud ölkəmizin üstündən tezliklə çəkiləcək. Sizin ölkəmiz üçün çəkdiyiniz əziyyəti, qayğınızı, dəstəyinizi görürük. Görməyənlər isə Vətən sevgisindən məhrumdur. Mən əliləm. Gənc valideyn olaraq iki oğul böyüdürəm və deyirəm, nə yaxşı ki, bu ölkədə doğulmuşuq, Azərbaycanın vətəndaşıyıq.

Hörmətli cənab Prezident, biz Sizinlə, Azərbaycanımızla fəxr edirik. Mən ailəmiz adından Sizə ürəkdən təşəkkürümüzü çatdıraraq, karantin rejiminə riayət etdiyimizi bildirirəm. Hər zaman sağ olun, var olun!”.

Kürdəmirdən Tofiq Əliyev, Bəbiş Mehdiyev, Şəmsəddin Cəfərov, Nicat İbrahimov və İlqar Həsənov rayonda məskunlaşan məcburi köçkünlər adından yazırlar: “Möhtərəm cənab Prezident, ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması ilə bağlı gördüyünüz işlərə görə Kürdəmir rayonunda məskunlaşan məcburi köçkünlər adından Sizə təşəkkür edirik. Azərbaycan xalqına göstərdiyiniz diqqət və qayğı, maddi və mənəvi dəstək heç zaman unudulmayacaq. İnşallah, Sizin rəhbərliyinizlə bu bəlaya qalib gəldikdən sonra daha neçə-neçə zirvələr fəth edəcəyik. Allah bu müqəddəs işinizdə Sizı yardımçı olsun!”.

**Bakı şəhərinin Xətai rayonunda yaşayan Qarabağ müharibəsi əlili Teymur Əliyevin məktubunda deyilir:** “Hörmətli cənab Prezident, mən Qarabağ müharibəsi əlili, təqaüddə olan polis işçisi kimi Azərbaycan vətəndaşı olmağımla fəxr edirəm. Hər gün dünya xəbərlərini izlədikcə ölkəmizdə olan vəziyyətdən qürur hissi keçirirəm. Hörmətli Prezident, cənab Ali Baş Komandan, dünyaya meydan oxuyan ölkələrdə baş verən olayları, yüzlərlə, hətta minlərlə insan itkilərini gördükdə bu pandemiyanın necə qorxunc bəla olduğunu başa düşürük, lakin ölkəmizdə bunu hiss etmirik. Çünki Sizin kimi müdrik Prezidentimiz var. Azərbaycan xalqı bir daha Prezidentimizin yürütdüyü siyasətin doğruluğunu, vətəndaşların rifahının hər şeydən üstün tutulduğunu gördü. Buna görə də bütün xalq Sizin ətrafınızda sıx birləşərək deyir: “Cənab Prezident, biz Sizinləyik!”. Allah Sizi qorusun!”.

**Bakı şəhərinin Nərimanov rayonunun sakini Arif Əsgərov:** “Hörmətli cənab Prezident, ölkəmizin bu çətin günlərində - koronavirus pandemiyası ilə mübarizədə Sizin göstərdiyiniz diqqət və qayğınızla xalqımıza dayaq olmağınız bizi qürurlandırır. Bizə - müharibə veteranlarına göstərdiyiniz diqqətə görə Əfqanıstan müharibəsi veteranları adından Sizə dərin təşəkkürümü bildirirəm. Ümid edirəm ki, Sizin sayənizdə ölkəmiz tez bir zamanda əvvəlki gözəl günlərinə qayıdacaqdır”.

**Bakı şəhərinin Xətai rayonunda yaşayan məcburi köçkün Zəminə Cəfərova:** “Möhtərəm cənab Prezident, Sizin müdrik siyasətinizin nəticəsində Azərbaycan cənnət diyara çevrilib. Qlobal pandemiyanın yayıldığı bir zamanda məhz Sizin rəhbərliyinizlə koronavirusa qarşı mübarizədə dövlətimiz vaxtında qabaqlayıcı tədbirlər gördü. Bunun nəticəsidir ki, Azərbaycanda xəstələrin sayı çox az oldu. Bu gün Siz bir daha sübut etdiniz ki, Azərbaycan xalqına xidmət edirsiniz. Ölkəmizdə COVID-19 infeksiyasına qarşı görülmüş bütün qabaqlayıcı tədbirlər insanlarımızın sağlamlığının qarantıdır. Sizin işsiz vətəndaşlara və sahibkarlara göstərdiyiniz maddi və mənəvi dəstək əsl rəhbər, dövlət başçısı qayğısının təzahürüdür. Bizim dəyərli Prezidentimiz, inşallah, Sizin rəhbərliyinizlə Vətənimizdə həyat yenidən öz axarına düşəcəkdir. Siz xalqın etimadını qazanmış bir Lidersiniz. Ulu Tanrıdan Sizi və ailənizi qorumağı diləyirəm”.

**Şəki Dövlət Regional Kollecinin müəllimi Namiq Hacıyev:** “Möhtərəm cənab Prezident, bəşəriyyəti cənginə almış koronavirusla mübarizədə dünyanın aparıcı dövlətləri belə böyük çətinliklərlə üzləşib. Sizin uzaqgörən və müdrik siyasətiniz, həyata keçirilən qətiyyətli qabaqlayıcı tədbirlər xalqımızın bu bəladan az itkilərlə çıxmasına zəmin yaradıb. Azərbaycanda koronavirusla mübarizədə qabaqlayıcı tədbirlər gördüyünüzə görə Sizə təşəkkürümü bildirirəm. Ölkəmizdə hələ COVID-19 infeksiyasına yoluxma baş verməmişdən əvvəl Sizin tapşırıq və göstərişinizlə dezinfeksiya işlərinə başlanıldı. Sonra Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı. Mən doğma Azərbaycanımı dünyada ən xoşbəxt ölkə hesab edirəm. Çünki bu xalqın Sizin kimi mərd oğlu, müdrik Prezidenti vardır. Bu çətin günlərdə Sizə və ailənizə cansağlığı, yeni uğurlar arzulayıram”.

**Bakının Xətai rayonunda fəaliyyət göstərən Zaur Məmmədov adına 171 nömrəli tam orta məktəbin direktoru Zemfira Məsiyeva, müəllimlər Sima Əhmədova, Kənan İsmayılov, Sərxan Behbudov və Nüşabə Bilalova təhsil ocağının kollektivi adından dövlətimizin başçısına yazırlar:** “Möhtərəm cənab Prezident, cəmiyyət və dövlət olaraq ağır sınaqdan keçdiyimiz bir vaxtda hər bir vətəndaş Sizə ümid çırağı kimi baxır. Bu savaşdan birlikdə qalib çıxacağımıza zərrə qədər də şübhəmiz yoxdur. Çünki öz vətəndaşlarının hər cür təhlükədən etibarlı müdafiəsini təşkil edən, koronavirus pandemiyasının ölkə əhalisinə təsirini mümkün qədər azaltmaq üçün ən səmərəli tədbirlər həyata keçirən qüdrətli dövlətimiz var. Milli həmrəylik məsələsində çoxminli müəllimlər ordusunun üzvləri olaraq biz də dövlətimizin, onun müdrik rəhbərinin yanındayıq. Azərbaycanda həm də milli təhlükəsizliyimizin qorunmasını özündə ehtiva edən bu mübarizədə Sizin rəhbərliyinizlə həyata keçirilən təxirəsalınmaz tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunmasında oynadığı həlledici rol gözlərimizin önündədir. Cənab Prezident, ölkəmizin sabahı, gələcəyi olan uşaqlar, o cümlədən bizim məktəbin şagirdləri də dərslərini evdən onlayn şəkildə davam etdirir, videodərslərdə fəal iştirak etməklə bilik və bacarıqlarını möhkəmləndirirlər. Əmin olun ki, xalqımızı pandemiya bəlasından qorumaq üçün böyük əzm və fədakarlıqla gördüyünüz işlərdən düşən ümid işığını indidən görürük. Biz Sizinlə güclüyük!”.

**Salyan rayonunun Aşağı və Yuxarı Noxudlu kəndlərinin sakinləri Səxavət Nuriyev, Müzəffər Feyzullayev və İsgəndər Babayev yazırlar:** “Hörmətli cənab Prezident, bəşəriyyət koronavirus pandemiyası kimi çətin sınaqla üz-üzədir. Bəzi ölkələrdə əsl insanlıq faciələri yaşandı. Çox sevinirik ki, tərəfinizdən görülən tədbirlər nəticəsində biz belə halları kənardan seyr etdik. Sizə, həmçinin koronavirus infeksiyasına qarşı mübarizədə fəal iştirak edən hər kəsə, xüsusilə də həkimlərə dərin minnətdarlığımızı bildiririk. Məhz Sizin qətiyyətli mövqeyinizin sayəsində xalqımız bütün çətinliklərin öhdəsindən uğurla gələcək. Siz gördüyünüz işlərlə və verdiyiniz qərarla hər zaman vətəndaşın yanında olduğunuzu bir daha sübut etdiniz. İnanırıq ki, narahat günlərimiz tezliklə tarixin yaddaşına köçəcək və doğma ölkəmizdə həyat yenidən öz axarına düşəcəkdir”.

Daşkəsən rayonundan Rövşən Həsənov, Mübariz Abbasov, İsmayıl Mürsəlov və Jalə Musayeva yazırlar: “Möhtərəm cənab Prezident, koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində görülən tədbirləri dəstəkləyirik. Bu tədbirlər sayəsində hazırda ölkəmizdə xəstəliyə yoluxma nisbətində müsbət dinamika müşahidə edilir, sağalanların sayı hər gün daha da artır. Ölüm sayı isə digər ölkələrlə müqayisədə kifayət qədər azdır. Bu xəbərlərin bizi necə sevindirdiyini sözlə ifadə etməkdə çətinlik çəkirik. Cənab Prezident, bu mübarizə hələ tam başa çatmayıb, amma artıq hər bir azərbaycanlı əmindir ki, Siz bütün vasitələrdə bu problemin öhdəsindən də gələcəksiniz. Allah Sizi xalqımızın başı üzərindən əskik etməsin!”.

**İmişli rayonunun sakini Rafiq Məhəddinov:** “Möhtərəm cənab Prezident, Sizi salamlayır və dövlətimiz üçün bu çətin zamanda gecəgündüz xalqımıza xidmət etməyinizi böyük fəxarət hissi ilə vurğulayaraq, Sizə minnətdarlığımı bildirirəm. Bütün dünyanı sarsıtmış yeni növ koronavirusdan ən az zərər görən ölkələr sırasındayıq. Bu, Sizin diqqətinizin, qayğınızın, qətiyyətli mövqeyinizin nəticəsidir. İnanırıq ki, karantin müddətində xalqımızın Sizin tövsiyə və tapşırıqlarınıza əməl etməsi dövlətimizi bu çətin zamanda daha da gücləndirərək, virusa qalib gəlməsinə kömək edəcək”.



**Ağdam rayonunun Zəngişalı kəndinin sakini Ramin Sadıqov:** “Çox hörmətli cənab Prezident, Azərbaycanın xalqının rifahı, gözəl, firavan yaşaması üçün var gücünüzlə çalışdığınıza görə Sizə və Mehriban xanıma təşəkkürümü bildirirəm. Bölgələrimizdə aparılan abadlıq-quruculuq işlərində Sizin və Mehriban xanımın imzalarınız danılmazdır. Bununla yanaşı, vətəndaşlarımızın sağlam yaşamaları üçün ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizədə əlinizdən gələni əsirgəmir, virusa yoluxan xəstələr üçün yeni modul tipli xəstəxanalar tikdirərək, xalqımızın qayğısına qalırsınız. Sizin sayənizdə xalqımızın bu dərd-bəladan tezliklə qurtulacağına inanırıq. Uca Allah millətimizi, Sizi və Sizin ailəni qorusun!. Allah ulu öndər Heydər Əliyevə qəni-qəni rəhmət etsin ki, bizlərə Sizin kimi oğul bəxş edib. Görülən bütün işlərə görə Sizə minnətdarıq, cənab Prezident. Sizə uzun ömür və cansağlığı arzu edirik”.

**Odlar Yurdu Universitetinin kollektivi və tələbələri adından Əhməd Vəliyev yazır:** “Çox hörmətli cənab Prezident, bu gün dünyanı fəlakətin bürüdüyü bir zamanda ən nəhəng dövlətlərin və onların rəhbərlərinin xəstəlik qarşısında acizliyi hamımıza məlumdur. Siz isə belə bir bulanıq, təlatümlü dünyada dərin zəka, ağıl, düşüncə nümayiş etdirərək, xalqla bir olan dünyəvi Lider olduğunuzu bir daha sübut etdiniz. Belə ağır və məsuliyyətli günlərdə Siz hər bir vətəndaşımıza diqqət yetirirsiniz, yorulmadan onlarla daim bir yerdə olursunuz. Həmçinin Birinci vitse-prezidentimiz, çox əziz Mehriban xanımın bu çətin vaxtlarda insanlarımıza doğmalıqla, bir ana qayğısı ilə, humanistcəsinə müraciətləri soydaşlarımızda böyük mənəvi stimul və yüksək əhval-ruhiyyə yaradıb. Biz təhsil işçiləri olaraq Sizin atdığınız hər bir addımı təhlil edir, bu gün üçün müəyyənləşdirib uğurla tətbiq etdiyiniz idarəçilik modelinin alternativsiz olduğunu təsdiqləyir və çox yüksək qiymətləndiririk. Nəsirəddin Tusinin belə bir kəlamı var: “Hökmdar o zaman hökmdar olaraq qəbul edilir ki, ölkə xəstələndikdə onu müalicə etsin, sağlam olduqda isə onun sağlamlığının keşiyində dayansın”. Hörmətli cənab Prezident, bu ifadələrin fonunda Siz zirvədəsiniz və əvəzolunmaz Lidersiniz. Odlar Yurdu Universitetinin çoxsaylı kollektivi və tələbələri Sizinlə qürur duyaraq əmin olduqlarını bildirirlər ki, Siz dünya miqyasında alternativi olmayan bir lider kimi qələbə qazanacaqsınız. Tanrı köməyiniz olsun!”.

**Lənkəran rayonunun Boladi kəndindən Ramazan Quliyev:** “Möhtərəm cənab Prezident, koronavirus təhlükəsi gözlənilmədən sərhədlərimizə dayandı. Siz bu fəlakət gətirən virusun qarşısını almaq üçün dərhal fəaliyyətə başladınız, onun ölkəmizdə yayılmaması üçün dövlət səviyyəsində qərarlar qəbul edildi, həyati əhəmiyyətli tədbirlər görüldü. Bu tədbirlərin nəticəsidir ki, dünyanı çökdürən pandemiyanın ölkəmizə təsiri güclü olmadı, müdrik qərarlarınız xalqımızı bu qorxunc bəladan qorudu. Xalqımız da Sizin ətrafınızda sıx birləşərək, bu xəstəliyə qarşı mübarizədə səfərbər oldu. İnşallah, zəhmətiniz bəhrə verəcək, rəhbərliyinizlə bu sınaqdan şərəflə çıxacağıq!”.

**Göyçay rayonunun Alpout kəndinin ağsaqqalları adından yazan Qəhrəman İbrahimovdövlətimizin başçısına minnətdarlığını bu sözlərlə ifadə edir:** “Hörmətli cənab Prezident, bütün dünyanı öz əsarətinə almış koronavirus pandemiyası respublikamıza da təsirsiz ötüşmədi. Lakin vaxtında görülmüş tədbirlər sayəsində bu təsirlər başqa ölkələrə nisbətən o qədər də güclü olmadı. Sizin xalqımıza bağlılığınız imzaladığınız sərəncamlarla və verdiyiniz qərarlarla bir daha özünü doğrultdu. Belə çətin dövrdə yaşı 65-dən yuxarı vətəndaşlara yoluxmanın qarşısını almaq məqsədilə evdə sosial xidmətlərin göstərilməsi, əfv Sərəncamınız ilə 176 məhkumun öz ailələrinə qovuşması, həmçinin işsiz vətəndaşlara birdəfəlik ödənişlərin verilməsi Sizin humanistliyinizin və əvəzsiz himayənizin sübutlarıdır. Azərbaycanımız üçün gördüyünüz bütün işlərə görə Sizə və Mehriban xanım Əliyevaya ailəm adından və Alpout kəndinin ağsaqqalları adından dərin minnətdarlığımı bildirirəm”.

# “Qadın hüquqlarının inkişafında Azərbaycan bəzi Qərbi Avropa ölkələri ilə müqayisədə öndədir”

*Fransa portalı Azərbaycan Milli Məclisinin qadın Sədrindən yazır*

***2020-ci il martın 10-da Sahibə Qafarova Azərbaycan parlamentinin yeni Sədri seçilərək dünyada 58-ci qadın spiker oldu. Bu hadisə ölkənin demokratiya yolunda irəliyə doğru növbəti addımı idi. Beynəlxalq müşahidəçilər Azərbaycanda parlament seçkilərinin demokratiyanın ümumi tələbləri çərçivəsində keçirildiyini bildirdilər. Bu proses ölkənin böyük Qərb dövlətləri ilə əlaqələrinin əhəmiyyətli dərəcədə inkişafına imkan yaradır.***


Billet de France
Actualités Monde Politique Société Économie Culture Histoire Entretiens Reportages Immobilier Écologie Chroniques libres
Recherche... Rechercher
Asie Monde
Sahiba Gafarova : une femme à la tête du Parlement d'Azerbaïdjan
Claire Legrand
Citation
Pierre Lazareff
« Ce n'est pas vraiment que j'ai peur de mourir. Mais j'ai tellement peur de m'ennuyer quand je serai mort »
Portrait du mois
Jean-Marie Saget
Envoyer un article
Des milliers de Films sur Mobile
Regardez maintenant une multitude de Films.
LANCER LE STREAM
Le 10 mars 2020, l'Azerbaïdjan a fait de Sahiba Gafarova la 58ème femme dans le monde à devenir chef d'une assemblée parlementaire. Cet événement marque une étape supplémentaire dans les progrès accomplis par le pays en matière de processus démocratique. Quelques semaines auparavant, le déroulement des élections avait été reconnu par des observateurs internationaux comme globalement respectueux des usages démocratiques. Un processus qui permet ainsi au pays de développer significativement ses liens avec les puissances occidentales.
Des législatives réussies dans un contexte politique compliqué
À la suite de la démission inopinée du premier ministre Novruz Mammadov en novembre 2019, et invoquant le besoin de mieux s'adapter au rythme des réformes en cours, le Parlement a voté sa propre dissolution en décembre, ce qui a nécessité de nouvelles élections législatives. Celles-ci, prévues pour le mois de novembre 2020, ont été avancées au 9 février. Quelques chiffres nous donnent un bon aperçu de l'organisation de ce rendez-vous politique important. Près de 6 millions d'électeurs inscrits ont été appelés aux urnes dans plus de 5 500 bureaux de vote à travers le pays. Ces derniers ont pu choisir parmi 1 315 candidats dont plus de 20% de femmes. Les élections ont été tenues sous l'oeil vigilant des 80 000 observateurs locaux et de 900 observateurs internationaux agissant pour le compte de 60 organismes internationaux et 58 pays.
Sur Facebook
Billet de France

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın “Billetdefrance” portalında dərc edilmiş “Azərbaycan parlamentinin qadın spikeri: Sahibə Qafarova” adlı məqalədə yazılıb.

Azərbaycanda keçirilmiş parlament seçkiləri haqqında ətraflı məlumat verilən məqalədə qeyd edilib ki, Prezident İlham Əliyev son illər ərzində ölkəni Qafqaz regionunda sabit iqtisadiyyatlı və böyük ambisiyalı gücə çevirib. Böyük karbohidrogen ehtiyatlarına əsaslanan Azərbaycan hökuməti ölkənin şaxələndirilmiş iqtisadi inkişafından istifadə edərək uğurlu sosial siyasət həyata keçirir.

Məqalədə bildirilir ki, seçkilərin nəticəsi mübahisə doğurmadı. Yeni Azərbaycan Partiyası 125 yerdən 72 yeri qazanaraq böyük üstünlük əldə etdi. Seçkilərin nəticələri hökumətin yürütdüyü siyasətə xalqın böyük dəstəyi kimi qiymətləndirildi.

Qeyd edilir ki, Sahibə Qafarovanın Milli Məclisə yeni qadın spiker seçilməsi cəmiyyətdə intellektual və siyasi dairələrdə qadınlara verilən əhəmiyyəti əks etdirir. Bu, Qafqaz və Orta Asiya ölkələri üçün avanqard nümunədir.

Məqalədə S.Qafarovanın tərcümeyi-halına toxunularaq, karyerasına universitetdən başladığı yazılır. 2004-cü ildə elmlər doktoru elmi dərəcəsi almış S.Qafarovanın Bakı Slavyan Universitetində və ABŞ-ın Pinceton Universitetində (Miçiqan) müəllim kimi fəaliyyət göstərdiyi bildirilir. Onun 2004-cü ildə Yeni Azərbaycan Partiyasının üzvü olduğu və həmin vaxtdan siyasət meydanına qədəm qoyduğu diqqətə çatdırılır. 2010-cu ildə Yeni Azərbaycan Partiyasından Milli Məclisə üzv seçilmiş S.Qafarovanın bu illər ərzində təhsil sahəsində əldə etdiyi uğurları, beynəlxalq siyasi arenada da, xüsusilə AŞPA-da Azərbaycan nümayəndə heyətinin üzvü kimi davam etdirdiyi vurğulanır. Onun AŞPA-nın Miqrasiya, qaçqınlar və məcburi köçkünlərin işi üzrə komitəsinin sədri, qurumun qadınlara qarşı zorakılıqla mübarizə üzrə baş məruzəçi və “Zorakılıqdan azad qadın” parlament şəbəkəsi üzrə siyasi əlaqələndirici olduğu bildirilir. Qeyd edilir ki, o, öz ölkəsində olduğu kimi beynəlxalq səviyyədə də qadınlar və kişilər arasında bərabərliyi təbliğ edən təşkilatlarda fəal rol oynayıb. S.Qafarova AŞPA-nın bərabərlik və qeyri-diskriminasiya üzrə komitəsinin məruzəçisi kimi qurumun “Qadınlara münasibətdə zorakılığa qarşı mübarizənin ən yaxşı təcrübələrinin tətbiqinə” dair 2084 saylı qətnaməsini hazırlayıb. Qadın hüquqlarının hər bir ölkənin demokratikləşməsinin əsas əlaməti olduğunu əminliklə qeyd edən S.Qafarova ötən il Parisdə Fransa Milli Assambleyasında təşkil edilmiş simpoziumda deyib: “Həqiqətən əminəm ki, qadın hüquqlarının inkişafı ölkədə demokratiyanın səviyyəsinin ən yaxşı göstəricisidir. Keçmiş sovet ölkələrində bu mövzu ciddi məsələdir”.

Vurğulanır ki, ki, bu baxımdan, Azərbaycan bəzi Qərbi Avropa ölkələri ilə müqayisədə öndədir. Azərbaycan hələ 1919-cu ildə, Fransadan təxminən 30 il əvvəl qadınlara səsvermə hüququ verib və bu baxımdan ilk müsəlman ölkəsidir. Həmin il bir qadın parlament üzvü seçilmişdi və 100 il sonra ölkənin siyasi səhnəsində qadınlar mühüm vəzifələr tutur. Bu gün qadınlar ölkənin beynəlxalq münasibətlərində mühüm rol oynayır. Azərbaycan regionda yerini bərkitməklə kifayətlənmir, planet səviyyəsində milli və beynəlxalq aktora çevrilmək istəyir. Milli Məclisə yenicə sədr seçilmiş S.Qafarova bunu təsdiq edərək deyir: “Bizim ölkə sabitdir və xarici siyasətində beynəlxalq hüquq normalarını ciddi şəkildə tətbiq edir. Bu, Azərbaycana beynəlxalq aləmdə etibarlı tərəfdaş olmaq imkanı qazandırır”. Buna misal olaraq, 2019-cu ildə Azərbaycan beynəlxalq və ya ikitərəfli görüşlər çərçivəsində 40-dan çox ölkə və hökumət başçısını qəbul edib. Bu rəqəm Avropa və Asiyanın kəsişməsində yerləşən bu Qafqaz ölkəsinin beynəlxalq səviyyədə artan nüfuzuna dəlalət edir.

Məqalədə uzun illərdən bəri Azərbaycan siyasətini izləyən deputat Jan-Lük Reitzerin müşahidəçi kimi seçkilərlə bağlı müsbət fikirləri də yer alıb.

## Leyla Əliyevanın təşəbbüsü ilə Milli Hematologiya və Transfuziologiya Mərkəzinə dərman preparatları təqdim edilib



Aprelin 20-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Milli Hematologiya və Transfuziologiya Mərkəzinə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar yaranmış məhdudiyyətlər fonunda ehtiyac duyulan dərman preparatları təqdim edilib.

Təqdim olunmuş dərman preparatları “Cırtdan” adlı ailəvi meqaşoudan əldə edilən gəlir hesabına alınıb. “Biz birlikdə güclüyük!” şüarı altında təqdim edilən yardım xüsusi karantin rejiminin tətbiq olunduğu vaxtda dövlət səviyyəsində həyata keçirilən tədbirləri dəstəkləmək məqsədi daşıyır.

Son illər ərzində Azərbaycanda xəstə və yardıma ehtiyacı olanlara, xüsusilə də uşaqlara qayğı və diqqəti ilə seçilən Leyla Əliyeva tərəfindən bu insanlara ardıcıl olaraq müxtəlif şəkildə yardım və dəstək göstərilib, onun təşəbbüsü ilə “Cırtdan” meqaşoudan əldə edilən gəlirlər xüsusi qayğıya ehtiyacı olan uşaqların sağlamlığının bərpa və təmin olunmasına yönləndirilir.

Qeyd edək ki, keçən il sözügedən layihə çərçivəsində Talassemiya Mərkəzinə maliyyə yardımı, Milli Onkologiya Mərkəzinin uşaq şöbəsinə dərman preparatları, müxtəlif oyuncaq və digər hədiyyələr təqdim edilib.

## Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin onlayn iclası keçirilib

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin onlayn iclası keçirilib. Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, komitənin sədri Tahir Mirkişili iclası açaraq gündəlik barədə məlumat verib. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuşda) ilə bağlı qeyd edilib ki, təklif olunan dəyişiklik, Azərbaycan Respublikasında və ya Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan bir sıra konsul əməliyyatları üçün dövlət rüsumunun dərəcələrinin sosialyönümlülük prinsiplərinə uyğun olaraq azaldılması məqsədilə hazırlanıb. Komitə üzvləri - Əli Məsimli, Aydın Hüseynov, Məşhur Məmmədov, Vüqar Bayramov, Anar Məmmədov, Rüfət Quliyev məsələ barədə fikirlərini bölüşüblər.



Daha sonra komitə üzvləri “Dövlət rüsumu haqqında”, “Dövlət satınalmaları haqqında” qanunlarda, Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”də dəyişiklik edilməsi haqqında qanun layihələri barədə, “Nağdsız hesablaşmalar haqqında” Qanunda, Mənzil, İnzibati Xətalar məcəllələrində, “Uşaq hüquqları haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında”, “Gənclər siyasəti haqqında”, “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında”, “Könüllü fəaliyyət haqqında”, “Bədən tərbiyəsi və idman haqqında”, “Reklam haqqında” və “Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini müzakirə edərək Milli Məclisin plenar iclasında ikinci oxunuşda baxılmaq üçün tövsiyə ediblər.

## Xüsusi karantin rejimi qaydalarını pozduğuna görə İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısına töhmət elan olunub

Prezident İlham Əliyev İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırova töhmət elan edilməsi haqqında Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Nahid Bağırova töhmət Azərbaycan ərazisində koronavirus infeksiyasının (COVID-19) yayılmasının qarşısının alınması məqsədilə tətbiq olunmuş xüsusi karantin rejimi qaydalarını pozduğuna görə elan edilib.

## Azərbaycanda yeni koronavirus infeksiyasına daha 44 yoluxma faktı qeydə alınıb, 74 nəfər müalicə olunaraq sağalıb



Azərbaycan Respublikasında yeni koronavirus infeksiyasına daha 44 yoluxma faktı qeydə alınıb, 74 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, şəkərli diabet, hipotireoz və xronik böyrək xəstəliyi olan 1963-cü il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 1480 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 865 nəfər müalicə olunaraq sağalıb, 20 nəfər vəfat edib, 595 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 14 nəfərin vəziyyəti ağır, 20 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 102.764 test aparılıb.

## Paşinyan erməni QHT-lərinin hədəfində!

“Bütün müvafiq orqanları dərhal Ermənistanın baş naziri Nikol Paşinyanın yolverilməz davranışına lazımi hüquqi qiymət verməyə çağırırıq”. SİA news.am-a istinadən xəbər verir ki, bu barədə feysbuk sosial şəbəkəsində Ermənistanda fəaliyyət göstərən “Hüquqi yol” QHT-si bəyanat yayıb. Bəyanatda əsasən bildirilir: “Biz, baş nazirin aprelin 19-da canlı yayım vasitəsi ilə Konstitusiya məhkəməsinin hakimlərinin, ümumi hakimlərin, dövlət qulluqçularının, jurnalistlərin və siyasi opponentlərinin ünvanlarına səsləndirdiyi bəyanatından dərin narahatlıq hissi keçiririk. Bir sıra hüquqi və etik nöqteyi-nəzərindən çıxış edərək, vəzifəli şəxsin, xüsusən də hökumət başçısının bu cür davranışı yolverilməzdir”.

“Bu nitqi qanunun tələblərinin, ictimai əxlaq normaların, məhkəmələrin azadlığının, mətbuat azadlığının və dövlət xidmətinin hüquqi qarantiyalarının kobud şəkildə pozulması kimi qiymətləndiririk. Hüquq müdafiəçilərinin fəaliyyətsizliyi dövlətçilik institutlarının delegitimləşdirilməsinə və tədricən özünüməhvinə aparıb-çıxaracaq”.

**Rövşən**

# "Koronovirusla mübarizədə Azərbaycan təcrübəsi öyrənilməkdədir"

***Koronavirusla mübarizədə dönməzliyi və təmkinliyi, daha çox ardıcıllığı və strateji xarakteri ilə diqqəti cəlb edən, proseslərin önündə Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti dayanır. Bu sözləri SİA-ya müsahibəsində Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Musa Quliyev deyib.***



Komitə sədri diqqətə çatdırıb ki, hələ ötən ilin sonlarında Çindən sürətlə yayılan və ölümlə nəticələnə bilən yeni virus infeksiyasının baş qaldırması barədə xəbərlər gəlməyə başlayan andan Cənab Prezident müvafiq tibbi-profilaktik tədbirlər görülməsi, lazımi diaqnostik və müalicəvi ləvazimatların alınması üçün müvafiq göstərişlər vermiş, fevral ayının sonlarından başlayaraq qonşu İranla, daha sonra digər dövlətlərlə sərhəd-gömrük rejiminin epidemiya əleyhinə tədbirlər səviyyəsinə keçirilməsi, xaricdə yaşayan vətəndaşlarımızın ölkəyə gətirilməsi və karantin rejimində saxlanılası kimi təcili tədbirlər görülməsi barədə tapşırıq verib.

Musa Quliyev həmçinin qeyd edib ki, prosesin inkişaf istiqamətini düzgün müəyyən edən Azərbaycan dövlətinin başçısı bir çox mədəni-kütləvi tədbirlərin, o cümlədən, Novruz şənliklərinin dayandırılması barədə vaxtında və çox düzgün qərar qəbul edib ki, bu tədbirlər əslində Cənab Prezidentin yumşaq karantin rejiminə keçid syasəti idi: "Ölkə başçısının sonrakı qərarları da reallığa tam adekvat və prosesləri qabaqlayıcı xarakter daşıyırdı. Koronavirusla mübarizənin kompleks və bir mərkəzdən idarə edilməsi məqsədi ilə Baş nazirin rəhbərliyi ilə Operativ Qərargahın və Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, pandemiyanın sosial- iqrisadi fəsadlarının azaldılması və post-pandemiya dövrünə hazırlıq məqsədi ilə görüləcək tədbirlərin maliyyələşdirilməsi üçün büdcədən 1 milyard manat vəsait ayrılması və daha sonra bu vəsaitin 3.5 milyard manata çatdırılması, ölkənin ən yaxşı otellərində karantin şəraitində olan 15000-ə yaxın xaricdən təxliyə olunan vətəndaşımızın tam dövlət büdcəsi hesabına saxlanılması, "Yeni Klinika" da daxil olmaqla müxtəlif bölgələri əhatə edən 20-dən artıq klinikanın koranovirusla xəstələrin müalicəsi üçün səfərbər edilməsi, cəmi iki həftə ərzində ölkə daxilində dezinfeksiya edici vasitələrin və tibbi maska istehsalının təşkil edilməsi, koronavirus infeksiyasina tutulmuş xəstələrin ixtisaslı müalicəsi üçün 6 yeni xəstəxananın tikilməsinə 14.8 milyon manat, tibb avadanlığının alınması məqsədi ilə 97 milyon manat ayrılması barədə Prezident sərəncamının imzalanması, Dünya Səhiyyə Təşkilatı ilə sıx əlaqələrin yaradılması və pandemiya ilə mübarizəyə Azərbaycan dövlətinin dəstəyi olaraq 5 milyon manat vəsaitin BMT-yə ianə edilməsi və s kimi tədbirlər koronavirusla mübarizədə dövlərin öncül, təşkilatçı və lider qismində münasibətinin ifadəsi kimi görürük".

Musa Quliyev onu da diqqətə çatdırıb ki, Cənab Prezidentin 19 mart 2020-ci il tarixdə imzaladığı koronavirus pandemiyasının ölkənin sosial-iqtisadi həyatına mənfi təsirlərinin azaldılmasını və post-pandemiya dövrünün inkişaf perspektivlərini nəzərdə tutan "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamın olduqca böyük əhəmiyyəti vardır.

"Müvəqqəti də olsa işsiz qalmış, sosial əlaqələri və işgüzar münasibətləri zəifləmiş, qazancı azalmış, bəzi hallarda isə (əmək müqaviləsi olmayan, günəmuzd işləyənlər) qazancdan məhrum olmuş insanların köməyinə yenə dövlət gəlir. Dövlətin sosial müdafiə tədbirləri nə qədər vaxtında və ünvanlı olaraq göstərilirsə, böhran dövründə vətəndaş özünü o qədər güvəncli və inamlı hiss edir.

Daxili siyasətində vətəndaşların sosial müdafiəsini və sosial rifahını prioritet istiqamət kimi müəyyən edən Azərbaycan dövləti hər zamankı kimi bu çətin vaxtda da xalqın yanında olduğunu oz əməli fəaliyyəti ilə bir daha təsdiq etdi. Cənab Prezident İlham Əliyevin koronavirus pandemiyasının ölkə iqtisadiyyatına və vətəndaşların həyat səviyyəsinə mənfi təsirlərinin azaldılması ilə bağlı 10 mart 2020-il tarixli sərəncamının icrası olaraq Nazirlər Kabineti tədbirlər planı hazırladı. Tədbirlər planında nəzərdə tutulan maliyyə-iqtisadi tənzimləmə tədbirləri ilə yanaşı hökumət məşğulluq və sosial müdafiə tədbirlərinə ciddi önəm verdiyini bir daha bəyan etdi.

Hər şeydən öncə bildirim ki, koronaviriusla mübarizə çərçivəsində həyata keçirilən tədbirlər çoxşaxəlidir və 4 istiqaməti, 10 tədbiri nəzərdə tutur və 2.500.000 insanı əhatə edir ki, maliyyə tutumu 500 milyon manata yaxın bir məbləğ təşkil edir.

Məlum olduğu kimi, sosial müdafiə tədbirləri əsasən 3 istiqamətdə həyata keçirilir ki, bu sosial təminat, sosial yardım bə sosial dəstəkdir. Azərbaycan hökuməti hər 3 istiqamətdə sosial müdafiə tədbirlərini zamanında, operativ, bütün ehtiyatlar səfərbər edilməklə, karantin rejimində aztəminatlı insanların xidmətlərə əlçatanlığı nəzərə alınmaqla həyata kecirir.

Sosial təminat üçün 2.3 milyon insanı əhatə edən pensiya, müavinət, təqaüdlərin verilməsində nəinki ləngimə olmadı, əksinə, təyinatlar və ödənişlərin vaxtından əvvəl həyata keçirilməsi təmin olundu. Pensiya və digər ödənişlərin yalnız müvəkkil bankomatdan deyil, ən yaxında yerləşən isrənilən bankomatdan əlavə xidmət haqqı ödənilmədən alınması imkanları yaradıldı. Sosial yardım- 65 yaşdan yuxarı, tənha insanların evdən çıxmaması üçün onlara göstərilən bütün sosial və məişət xidmətlərini Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyi öz üzərinə götürdü və bu xidmətlər gündəlik olaraq sosial işçilər və könüllülər tərəfindən ləyaqətlə həyata keçirilir.

Məlumdur ki, 360 min nəfərə ünvanlı dövlət sosial yardımı verilir və sosial təcrid rejimi ilə əlaqədar ünvanlı sosial yardım verilməsi sadələşdiriləcək, yardım almaq müddəti isə heç bir diaqnostika aparılmadan avtomatik olaraq uzadılmışdır. Karantin günlərində ünvanlı sosial yardım alan ailələrin sayı daha 10 min artaraq 82 minə çatdırılmışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Heydər Əliyev Fondu və digər sosial tərəfdaşları ilə birlikdə 45 min ailəyə ərzaq yardımı göstərilməsi proqramını həyata keçirir. Sevindirici haldır ki, bu xoşməramlı təşəbbüsə ölknin geniş içtimaiyyəti - iş adamları, deputatlar, qeyri-hökumət təşkilatları, müxtəlif icra hakimiyyəti qurumlarının təmsilçiləri də həvəslə qoşulmuşlar.

Sosial dəstək üçün Cənab Prezident İlham Əliyevin sərəncamı ilə koronavirus pandemiyasının fəsadlarının azaldılması məqsədi ilə hökumətə büdcədən ayrılmış vəsaitin xeyli hissəsi iş yeri fəaliyyətini dayandırmış vətəndaşlarımızın iş yerlərinin qorunub saxlanılmasına, ixtisar hallarına yol verilməməsinə, əmək haqlarının karantin şəraitində də verilməsinə yönəldilmişdir. Bu tədbirlər sayəsində 300 min iş yeri saxlanılır, dövlət büdcəsindən maaş alan 910 min, özəl sektorda çalışan 680 min işçinin orta aylıq əmək haqqı saxlanılır.

Ayrılan vəsaitə Dövlət Sosial Müdafiə Fondunun vəsaiti hesabına 203 milyon manat, İşsizlikdən sığorta Fondunun vəsaitindən 91 milyon manat vəsait də əlavə olunmaqla sosial müdafiə tədbirlərinə 500 milyon manatdan artıq vəsait sərf olunacaqdır. Eyni zamanda işsiz və iş axtaran vətəndaşlar, xüsusi ilə qeyri-leqal, əmək müqaviləsi olmadan çalışan karantin dövründə isə işsiz qalan şəxslərin sosial müdafiəsini təmin etmək üçün aylıq əmək haqqı 250 manat olmaqla 50 min sosial iş yeri açılmış, 200 min şəxsə isə yaşayış minimumu (190 manat) məbləğində iki aylıq müavinət verilməsinə başlanılmışdır. Artıq bu insanların yarıdan çoxu qeydiyyatdan keçmuş və müavinətlə təmin olunmuşlar", deyə Musa Quliyev nəzərə çatdırıb.

Millət vəkili onu da diqqətə çatdırıb ki, Cənab Prezident əhalinin daha geniş təbəqəsinin sosial müdafiəsini təmin etmək məqsədi ilə 17 aprel tarixdə daha bir humanist addım ataraq İşsizliyə görə yaşayış minimumu həddində sosial müavinət alanların sayının daha 400 min nəfər artırılaraq 600 min nəfərə çatdırılması barədə tapşırıq verib. Bu məqsədlə büdcədən daha 152 milyon manan ayrılacaqdır.

"Sosial dəstəyin başqa bir forması isə özünəməşğulluq proqramı çərçivəsində həyata keçirilir ki, bu il bu prorqram 12 min ailəni əhatə edəcəkdir. Nəzərdə tutulur ki, 20 min nəfərə işsizlikdən sığorta müavinəti veriləcək, həmçinin, peşə hazırlığı kurslarının müdavimlərinə iki aylıq ödəniş həyata keçiriləcəkdir.

Sosial müdafiə sisteminin iş yükü olduqca artmışdır, əməkdaşlar istər onlayn, istər adi rejimdə seytnot vəziyyətində çalışırlar. Aprelin ilk ongünlüyündə Əmək və Əhalinin Sosial müdafiəsi Nazirliyinin e-sosial.az saytına 12 milyondan çox müraciət olmuş, nazirliyin çağrı mərkəzinə də 1.6 milyondan artıq zəng edilmişdir.

Koronavirus pandemiyası ilə mübarizədə Azərbaycanın uğurlarını şərtləndirən amillərdən biri də Cənab Prezidentin bu sahədə beynəlxalq əməkdaşlığa ciddi önəm verməsi, mövcud beynəlxalq təcrübənin, xüsusi ilə Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinin nəzərə alaraq bu bəşəri bəla ilə mübarizə strategiyasını müəyyən etməsi oldu. Azərbaycan pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edir. Bu ilin 9-13 mart tarixlərində ÜST- ün aparıcı mütəxəssislərindən ibarət heyət ölkəmizdə səfərdə olmuşdur. Onlar ölkəmizdə vəziyyətlə tanış olaraq, görülmüş işlərə müsbət qiymət vermiş, Azərbaycanı pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişlər.

Cənab Prezident çox dogru olaraq vurğulayır ki, COVİD 19 global təhlükə olduğu üçün qlobal da cavab tələb edir. Heç də təsadüfi deyildir ki, məhz Azərbaycan Prezidentinin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə keçirilən fövqəladə Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizə tədbirlərinə həsr edilib. Bu da əlamətdardır ki, Zirvə görüşündə Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, doktor Tedros Adhanom Qebreyesus da iştirak etmiş, pandemiya ilə mübarizədə Azərbaycanın uğurlarını qeyd etmiş, ölkəmizin dünya birliyinə töhfəsini yüksək qiymətləndirmişdir. Zirvə görüşü bir daha göstərdi ki, bütün çətin anlarda Azərbaycan Prezidenti öz birləşdirici və səfərbər edici təşəbbüsü ilə önə çıxır, təkcə öz doğma xalqının deyil, bütün türk dünyasinin təəssübkeşi kimi çıxış edir, bu tarixi milli birliyi daha da möhkımlətmək üçün yorulmadan çalışır.

Azərbaycanın birinci Vitse-Prezidenti hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Koronavirisdan əziyyət çəkən ölkələrə mənəvi dəstək kampaniyası həyata keçirilir, həmin ölkələrin bayraqları Heydər Əliyev Mərkəzinin binası üzərində işıqlandırılır və adekvat addımların da bizə qonşu və dost ölkələr tərəfindən atıldığını görürük.

Artıq koronovirusla mübarizədə Azərbaycan təcrübəsi öyrənilməkdədir. Bu təcrübənin ən böyük örnəyi isə Lider-Xalq birliyidir. O birlik ki, çox çətin sınaqlardan çıxmış, daha da möhkəmlənmiş, mətinləşmişdir! Məhz bu birliyin sayəsində biz koronavirus pandemiyasına da qalib gələcəyik, torpaqlarımızı da işğaldan azad edəcəyik, ərazi bütöblüyümüzü də bərpa edəcəyik, tarixi yurdlarımıza da qayıdacağıq, qələbə nəğməmizin nəqaratı olaraq əsgər marşı kimi, dua kimi, gələcək nəsillərə çatacaq qədər uca səslə oxuyacağıq və biz bir yerdə güclüyük!", deyə millət vəkili Musa Quliyev bildirib.

**İnam Hacıyev**



## COVID-19 qəpik və kağız pullar vasitəsilə insana keçə bilər?

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVID-19-un qəpik və kağız pullar vasitəsilə ötürülə bilməsinin mümkünlüyünü açıqlayıb. Trend-in məlumatına görə, ÜST-ün Azərbaycandakı nümayəndəliyi bildirir ki, hazırda COVID-19 virusunun qəpik və ya kağız pullar vasitəsilə ötürülə biləcəyini təsdiq və ya təkzib edən fakt yoxdur. Buna baxmayaraq, infeksiyaya yoluxmuş insandan xaric olunan tənəffüs damcıları səthlərin üzərinə düşə və orada qala bilər.

ÜST bunları nəzərə alaraq, insanlara tövsiyə edir ki, əllərinizi qəpik və ya kağız pullar kimi tez-tez toxunulan istənilən səthə və əşyaya vurduqdan sonra düzgün şəkildə, müntəzəm olaraq yuyun. Əlləriniz təmiz deyilsə, gözlərinizə, ağzınıza və burnunuza toxunmayın.

## BMT-dən ŞOK açıqlama: "Aclıqla üzləşən insanların sayı iki dəfə arta bilər"



Koronavirus pandemiyası ilə əlaqədar ərzaq çatışmazlığı ilə üzləşən insanların sayı bu il 265 milyon nəfərədək çata bilər. Bu barədə Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Ərzaq Proqramının hesabatında deyilir.

Hesabatda qeyd olunur ki, aclığın qarşısının alınması üçün indidən ciddi tədbirlər görülməlidir. Ötən il dünyada ərzaq qıtlığı ilə üzləşən insanların sayı 135 milyon nəfər olub. Qeyd edək ki, bu günədək dünyada 2,4 milyondan çox şəxs koronavirusa yoluxub, 170 minə yaxın xəstə ölüb.

# Azərbaycanda böyük işlər aparılır və dəyişikliklər gedir

***"Yeni kompleksin açılışında Azərbaycanda elektrik enerjisi təminatının xüsusilə yüksək səviyyədə olması haqqında ölkə Prezidenti İlham Əliyev fikirlərini səsləndirdi. Biz özümüz də şahidi oluruq ki, bu istiqamətdə irimiqyaslı və sanballı işlər görülüb". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İntizam Komissiyasının sədri, Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin üzvü Eldar İbrahimov Prezident İlham Əliyevin "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin yeni kompleksinin açılışında səsləndirdiyi fikirlərə və ölkədə yaxın dövrdə enerji sahəsində görülən işlərə münasibət bildirərkən deyib.***



Onun sözlərinə görə, Prezident İlham Əliyevin çıxışı yüksək qiymətləndirilir və ölkə rəhbərinin səsləndirdiyi fikirlər böyük əhəmiyyət kəsb edir: "Bu çıxışı çox yüksək qiymətləndirirəm. Azərbaycanda elektrik enerjisinin təminatında xüsusilə yüksək səviyyədə olması haqqında ölkə Prezidenti İlham Əliyev öz fikirlərini səsləndirdi. Ümumiyyətlə, bu istiqamətdə irimiqyaslı və sanballı işlər görülüb. Təbii ki, bu işlər "Azərenerji" ASC-nin, Baba Rzayevin rəhbərliyi ilə aparılıb. Ümumiyyətlə, Azərbaycanda təkcə bu istiqamətdə yox, ölkədə bütün sferalarda böyük işlər aparılır və dəyişikliklər gedir. Prezident ilham Əliyev 16 il ərzində bütövlükdə ölkəmizdə 30-dan çox yeni stansiyanın tikildiyini bildirmiş və xüsusilə də böyük stansiyaların əhəmiyyətini vurğulamışdır. Bölgələrə çoxsaylı səfərləri çərçivəsində Prezident vətəndaşlarla maraqlandığı zaman enerji təminatı ilə bağlı son illər ərzində hər zaman müsbət rəylər eşitdiyinə də toxunur".

Millət vəkili vurğulayıb ki, külək enerjisi ilə əlaqədar olaraq Azərbaycanda avadanlıqlar qurulub və bundan da isifadə olunur: "Bu yolla ekoloji cəhətdən təmiz və əlverişli elektrik enerjisi almaq mümkün olur. Bununla əlaqədar ölkədə işlər aparılır və xeyli işlər görülüb. Həmin işlərin davam etdirilməsi istiqamətində də irəliləyirik. Ekoloji cəhətdən təmiz elektrik enerjisi əldə edirik".

Xaricdən ölkəyə bu istiqamətdə investorların cəlb olunması məsələsinə də toxunan Eldar İbrahimov bildirib ki, investorların cəlb olunması məsələsi də gündəmdədir: "Artıq müəyyən mənada bu sahəyə investorlar da cəlb olunub. Bu istiqamətdə işləri daha da inkişaf etdirmək və yeniliklərə nail olmaq vacibdir. Lakin, ölkəmizdə bu istiqamətdə kifayət qədər hərtərəfli və yüksək səviyyədə işlər həyata keçirilir. İstənilən halda təbii ki, daha çox invesorları da qəbul edə bilərik".

*Nigar Məmmədova*

# İsrailli ekspert: "İşğal edilmiş Dağlıq Qarabağda qeyri-qanuni seçkilər beynəlxalq hüququn əsas norma və prinsiplərinə ziddir"

***Bu gün, bütün dünya ictimaiyyəti planeti bürümüş dəhşətli koronavirus pandemiyasına qarşı fəal mübarizə apardığı bir vaxtda 2020-ci il martın 31-də Ermənistan Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazisi olan Dağlıq Qarabağdakı separatist, oyuncaq rejimdən istifadə edərək işğal olunmuş ərazidə qeyri-qanuni və qeyri-legitim, qondarma "parlament və prezident seçkiləri" keçirib.***



Beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut bu sözləri AZƏRTAC-a müsahibəsində deyib. İsrailli ekspertin fikrincə, hamıya tamamilə aydındır ki, bu qondarma seçkilər beynəlxalq hüququn əsas norma və prinsiplərinə zidd və belə "seçkilər"in nəticələrinin heç bir hüquqi əhəmiyyəti yoxdur.

Arye Qut vurğulayır: "Ermənistan Xarici İşlər Nazirliyinin bu məsələyə dair bəyanatı ilə tanış olan hər kəs çox yaxşı anlayır ki, Paşinyan rejimi ermənilərə xas olan xəyallar dünyasında yaşamağa davam edir. Heç bir beynəlxalq struktur, özünə hörmət edən heç bir dövlət Ermənistan silahlı qüvvələri tərəfindən 28 ildən çox bundan əvvəl işğal edilmiş Dağlıq Qarabağda keçirilmiş qeyri-qanuni və qeyri-legitim, qondarma "parlament və prezident seçkiləri"ni tanımayıb və tanımır.

Özünü "demokrat" kimi qələmə verən Paşinyan bu "obraz"dan Qərbə təzyiq üçün istifadə etmək ümidindədir. Belə cəfəng xəyallar, həmçinin müharibənin Azərbaycan üçün ədalətə nail olmağın yeganə üsulu olması faktı baş nazir Paşinyanın qeyri-peşəkarlığını, onda strateji təfəkkürdən əsər-əlamət olmamasını və böyük siyasət üçün tamamilə yararsız olduğunu göstərir".

İsrailli ekspertin sözlərinə görə, rəsmi Bakı bunu dəfələrlə bildirib və Ermənistana xəbərdarlıq edib ki, o heç vaxt mövcud status-kvo ilə razılaşmayacaq. İsrailli analitik vurğulayır: "Ermənistanın hərbi və siyasi rəhbərliyinin, həmçinin Dağlıq Qarabağdakı oyuncaq, separatist rejimin nümayəndələrinin gülünc bəyanatları və qondarma seçki şousu göstərir ki, onlar ciddi narahatlıq, qorxu, isterika və təlaş içindədirlər. Azərbaycan ordusu isə cəbhə xəttində hadisələrin istənilən ssenari üzrə inkişafına hazırdır. 2016-cı ilin aprelin əvvəlində Ermənistanın hərbi provokasiyalarına cavab olaraq və öz vətəndaşlarının təhlükəsizliyin təmin olunması üçün Azərbaycan ordusunun Ermənistan silahlı qüvvələrinə sarsıdıcı hərbi zərbələr endirməsini hələ heç kəs unutmayıb".

Avropa İttifaqının aydın və dəqiq mövqeyinidə vurğulamaq lazımdır. Bu qurum martın 31-də Azərbaycanın Dağlıq Qarabağ regionunda keçirilmiş "prezident və parlament seçkiləri"ni qanunsuz hesab edir. Avropa xarici əlaqələr xidmətinin martın 31-də Brüsseldə elan edilmiş bəyanatında deyilir: "2020-ci il martın 31-də Dağlıq Qarabağda keçirilmiş "prezident və parlament seçkiləri" ilə əlaqədar, Avropa İttifaqı yenidən bildirir ki, o, "seçkilər"in keçirildiyi konstitusion və hüquqi çərçivələri tanımır".

Sənəddə vurğulanır ki, bu hadisə "Dağlıq Qarabağın gələcək statusunun təyininə və ya davam edən danışıqlar prosesinin nəticəsinə təsir göstərə bilməz. Avropa İttifaqı ATƏT-in Minsk qrupunun fəaliyyətini, o cümlədən onun həmsədrlərinin yaranmış status-kvonun çərçivəsindən kənara çıxan tərəqqi əldə edilməsinə, hərtərəfli və davamlı sülhə nail olmaq üçün danışıqlara yönəlmiş səylərini qətiyyətlə dəstəklədiyini xatırladır.

Beynəlxalq münasibətlər sahəsində israilli ekspert Arye Qut sonda Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla nizamlanacağına ümid etdiyini bildirərək deyib: "Həm İsrailin Baş Naziri səviyyəsində, həm də İsrailin Xarici İşlər Nazirliyinin rəhbəri səviyyəsində dəfələrlə bildirilib ki, İsrail Dövləti Azərbaycanın ərazi bütövlüyünə hörmət edir, mən də bu mövqeyin tərəfdarıyam. İsrail Dövləti bu gün də Azərbaycanın və Azərbaycan xalqının yanındadır".



## Heydər Əliyev Mərkəzi top üçlüyə daxil edilib

Rusiyanın "TurStat" turizm portalı MDB ölkələrinin ziyarətlər, onlayn-turlar və virtual ekskursiyalar üçün populyar olan ən yaxşı muzeylərinin və müasir incəsənət mərkəzlərinin reytinqini təqdim edib. SİA-nın məlumatına görə, MDB-nin ən yaxşı müasir incəsənət mərkəzlərinin ilk beşliyində Minskdəki Belarus Respublikası Milli Müasir İncəsənət Mərkəzi, Bakıdakı Heydər Əliyev Mərkəzi, Nur-Sultandakı Sülh və Həmrəylik Sarayı (Piramida) və digərləri yer alıb.

Reytinq muzeylərin populyarlığı, virtual turlar və muzey ekspozisiyaları üzrə ekskursiyaların təklifi baxımından aparılan tədqiqatların nəticələri əsasında tərtib edilib. Rusiyada "Qaraj" muzeyi və Moskva Müasir İncəsənət Mərkəzi liderdir.

## İtaliyanın məşhur La Stampa qəzeti Milli Xalça Muzeyindən yazır

Azərbaycanın İtaliyadakı səfirliyi öz sosial şəbəkə profillərində "Milli muzeylərimizə virtual səyahət" rubrikası yaradaraq İtaliya ictimaiyyətinə Azərbaycandakı muzeyləri onlayn ziyarət etmək, burada nümayiş olunan yeni sərgilər, maraqlı eksponatlar və ekskursiyalarla tanış olmaq imkanı yaradıb. AZƏRTAC xəbər verir ki, mövzu İtaliyanın məşhur "La Stampa" qəzetinin də marağına səbəb olub. Qəzetin "Səyahətlər və Mətbəx" (Viaggi e Cucina) bölməsində jurnalist Noemi Pennanın müəllifi olduğu "Bir xalça muzeyi hansı formada ola bilər? Bakının müvafiq cavabı belədir" başlıqlı yazısında Azərbaycan Milli Xalça Muzeyinin füsunkarlığından bəhs edilib.

"Bükülmüş xalça. Budur, yalnız Azərbaycan Milli Xalça Muzeyinə məxsus ola biləcək orijinal forma. Biz Bakıda, Azərbaycandayıq və müzakirə mövzusu bütünlüklə xalçaçılıq mədəniyyətinə və sənətinə həsr olunmuş unikal bir muzeydir", - deyən müəllif muzeyin tarixi haqqında danışıb, 2014-cü ildə onun Dənizkənarı Milli Parkdakı yeni və perspektivli binaya köçürüldüyünü, avstriyalı memar Frans Yantsın layihəsi əsasında tikilmiş muzeyin böyük bükülmüş xalçaya bənzədiyini vurğulayıb.

Məqalədə binanın interyeri haqqında məlumat verilir, binaya girərkən sanki ziyarətçilərin özlərini asılmış bir tunelin içərisində hiss etdiyini, muzeydə bəziləri XVII əsrə aid olan Azərbaycanın dünyada ən böyük xalça kolleksiyaları, habelə arxeoloji tapıntılar və keramika, yağ lampaları, tikiş və zərgərlik əşyaları daxil olmaqla məşhur sənətkarlıq nümunələrinin mükəmməl bir görünüşü ilə tanış olmaq imkanlarının olduğu bildirilir. Məqalədə, həmçinin qeyd olunur ki, muzeydə müxtəlif dövrlərə aid üzərində əjdahalar, ümid ağacları, xaç və İslam rəmzləri əks olunan əl ilə toxunmuş sadə və daha mürəkkəb formalarda xalçalar, xalçaların toxunması üçün dəzgahlar, yunlar, iplər, xurcunlar və digər müvafiq eksponatlar nümayiş olunur.

## "Dövlətimiz koronavirusla mübarizədə daha çevik tərpəndi"



"Hesab edirəm ki, Azərbaycan dövləti koronavirusla mübarizədə daha çevik tərpəndi. Vaxtında görülən profilaktik tədbirlər pandemiyadan ölü sayının artmasına imkan vermir". Bunu SİA-ya Jurnalist Araşdırmalar Mərkəzinin rəhbəri Seymur Verdizadə deyib.

Mərkəz rəhbərinin sözlərinə görə, ən çox itkini səhiyyənin ən çox inkişaf etdiyi ölkələr verir: "Təbii ki, təhlükə davam edir. Bu isə görülən tədbirlərin uzunömürlü olmasını zəruri edir. İnsanların ehtiyaclarını ödəmək şərtiylə onların evdə qalmasını tələb etmək tam məntiqlidir. Pandemiya dövründə ölkədə həyata keçirilən sosial layihələr, xüsusilə 600 min insana 190 manat vəsaitin ödənilməsi müsbət haldır. "DOST İş Mərkəzi vasitəsi ilə aprel-may ayları üzrə 50 min ödənişli ictimai iş yerinin yaradılması bu kampaniyanın tərkib hissəsi sayılmalıdır. Sahibkarlar üçün də müəyyən güzəştlər nəzərdə tutulub. Bütün bu tədbirlər pandemiya dövründə insanların daha az əziyyət çəkməsinə hesablanıb. Hesab edirəm ki, imkanlı şəxslər tərəfindən başladılan yardım kampaniyası daha geniş vüsət almalıdır. İmkanlı adamlar bu ağır günlərdə köməyə ehtiyacı olan ailələri darda qoymamalıdır. Biz ancaq dövlət-xalq birliyini gücləndirməklə bu çətin günləri arxada qoya bilərik".

# Xalqdan Prezidentə ETİMAD: “Biz həmişə Sizə güvənmişik!”

**Ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması, eyni zamanda, rifahının yaxşılaşdırılması ilə bağlı atdığı qətiyyətli addımlara görə Azərbaycan Prezidenti İlham Əliyevə vətəndaşlardan çoxsaylı minnətdarlıq məktubları gəlməkdə davam edir. SİA həmin məktublardan bir neçəsini təqdim edir:**



**Emin Mehtiyev, Biləsuvar:**

*Hörmətli cənab Prezident!*

Mən Sizi kimi rəhbərlə fəxr edirəm. Qarabağ müharibəsinin veteranıyam, hazırda müəllim kimi çalışıram. Hər dəfə şagirdlərimə dövlətimizin inkişafından, Ulu Öndərdən, Sizin Azərbaycan üçün etdiklərinizdən bəhs edəndə qürur hissi keçirirəm.

Siz daim xalqı düşünürsünüz. Bu ağır günlərdə isə qayğınız daha da artıb. Bu günləri Sizin rəhbərliyinizlə alnıaçıq başa vuracağıq və mən şagirdlərimə Sizin bu mübarizədə xalqımızı necə qorumağınız haqqında söhbətlər edəcəyəm.

Allah Sizi bizə çox görməsin.

Qunça Qafarova, Bakı:

Çox dəyərli və hörmətli cənab Prezidentimiz!

Ölkəmizdə yayılmaqda olan COVID-19 pandemiyasının qarşısını almaq üçün gördüyünüz çoxsaylı tədbirlərə görə sizə minnətdarlığımı çatdırıram.

Mənim 69 yaşım var, təqaüdçüyəm.Bu ağır günlərdə Azərbaycan xalqının hər bir ailəsini öz ailəniz kimi gördünüz.Sizin uzaqgörən siyasətiniz nəticəsində ölkəmizdə pandemiyanın mənfi təsirləri minimuma endirilib.Buna görə Sizə təşəkkürümü bildirirəm.Allahdan sizə uzun ömür və cansağlığı arzu edirəm.

**Şəhriyar Cəfərli, Masallı:**

*Hörmətli cənab Prezident!*

Sizə bu məktubu yazmaqda məqsədim Azərbaycanın bir gənc vətəndaşı olaraq, Sizə minnətdarlıq etməkdir.

Dünyanın bu çətin vəziyyətində bizə öz qayğınızı əsirgəmirsiniz. Bu çətin günlərdə bir çox ölkələrin öz vətəndaşlarına göstərmədiyi qayğını Siz Azərbaycan vətəndaşlarına göstərirsiniz. Bunun üçün atam həmişə bizə “Azərbaycanlı olduğunuz üçün özünüzlə fəxr edin” deyir. Bu sevgi və qayğını bizə Siz bəxş etmisiniz. Siz heç zaman heç bir vətəndaşı yaddan çıxarmırsınız, biz tələbələrə də öz qayğınızı göstərirsiniz.

Sizə öz adımdan və ailə üzvlərim adından dərin təşəkkürümü bildirirəm. Allah Sizdən razı olsun.

**Yeganə Fərəcova, Füzuli:**

*Hörmətli cənab Prezident!*

Cəbhə bölgəsində yaşayan vətəndaşlar olaraq inanırıq ki, Sizin və Mehriban xanım Əliyevanın güclü iradəsi və qətiyyətli siyasəti nəticəsində biz mövcud pandemiyaya tez bir zamanda qalib gələcəyik. Sizin atdığınız addımlar artıq öz səmərəsini verməkdədir. Bir neçə gündür pandemiya ilə bağlı açıqlanan statistika nikbinliyə əsas yaradır.

Kim bilir, bəlkə də bir çoxları üçün qarşısıalınmaz olan bu düşmənə qarşı qələbəmiz bizim növbəti zəfərlərimizin başlanğıcı olacaqdır. Sizin sayənizdə yağı düşmənə də qalib gələcəyimizə və işğal altında olan torpaqlarımızı azad edəcəyimizə ümid edirik.

Uca Allah Sizi və ailənizi qorusun.

**Mənsurə Cəbrayılova, Şəki:**

*Hörmətli cənab Prezident!*

Mən sadə bir Azərbaycan vətəndaşı, müəllim, mədəniyyət işçisi olaraq, Sizinlə qürur duyuram. Biz Sizin xalqımız üçün necə böyük işlər gördüyünüzün şahidiyik. Dünyanı pis günə qoyan bu virusla mübarizədə və bütün işlərinizdə Sizə dualar edir və alqışlayırıq. Azərbaycan xalqına göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarıq. Dövlətimizin qabaqlayıcı tədbirləri və düşünülmüş siyasəti nəticəsində bu gözə görünməyən virus, İnşallah ölkəmizi tərk edəcəkdir. Mən və ailəm Uca Allaha dualar edirik ki, Allah Sizə, həkimlərimizə, ordumuza, bu mübarizədə əməyi olan hər bir şəxsə dayaq olsun. Amin.

Dəyərli Prezidentimiz, Biz Sizinlə güclüyük. Allah Sizə yar olsun.

**Vüsət Xəlilov, Füzuli:**

*Əziz və möhtərəm Prezident!*

Bu ağır və çətin günlərdə bizim, sadə vətəndaşların yanında olduğunuza, xüsusi karantin müddətində işsiz və aztəminatlı ailələrə aylıq 190 manat pul vəsaitinin ödənilməsinə görə cəbhə bölgəsində yaşayan bütün Füzuli rayon sakinləri adından dərin minnətdarlığımızı bildiririk.

Bir daha əmin olduq ki, Sizi özümüzə lider seçməkdə yanılmamışıq. Siz Ümummilli Liderimiz kimi mürəkkəb vəziyyətlərdə böyük iradə nümayiş etdirməklə xalqı irəli aparmağa qadir rəhbərsiniz və bizim xatirəmizdə daim belə qalacaqsınız.

Allah yardımçınız olsun.

**Ləman Ramazanova, Sumqayıt:**

*Möhtərəm cənab Prezident!*

Koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasına imkan vermədiyinizə görə Sizə minnətdarıq.

Vaxtında görülən tədbirlər sayəsində biz bu gün evimizdə sağlam şəkildə ailəmizin yanındayıq. Bu mübarizədə bir çox adamlar qəhrəmanlıq göstərir, bu qəhrəmanlıqlar bizi qələbəyə yaxınlaşdırır. Bu qələbədə nə qədər çox adamın payı olsa da bayraqdarımız, qələbənin memarı Sizsiniz, cənab Prezident.

Allah Sizi xalqımızın üstündən əskik etməsin.

**Zəminə Cəfərova, Bakı:**

*Möhtərəm cənab Prezident!*

Sizin müdrik siyasətinizin nəticəsi olaraq, Azərbaycan cənnət diyara çevrilmişdir. Qlobal pandemiyanın yayıldığı bir zamanda məhz Sizin rəhbərliyinizlə koronovirus ilə mübarizədə dövlət vaxtında qabaqlayıcı tədbirlər gördü. Bunun nəticəsidir ki, Azərbaycanda xəstələrin sayı da çox az oldu. Bu gün Siz bir daha sübut etdiniz ki, Azərbaycan xalqına xidmət edirsiniz. Ölkəmizdə COVİD-19 infeksiyasına qarşı görülmüş bütün qabaqlayıcı tədbirlər insanlarımızın sağlamlığının qarantıdır. Sizin işsiz vətəndaşlara və sahibkarlara göstərdiyiniz maddi və mənəvi dəstək əsl rəhbər, dövlət başçısı qayğısının təzahürüdür. Bizim dəyərli Prezidentimiz, İnşallah, Sizin rəhbərliyinizlə Vətənimizdə həyat yenidən öz axarına düşəcək, toybüsatlar qurulacaqdır. Siz xalqın etimadını qazanmış Lidersiniz. Ulu Tanrıdan Sizi və ailənizi qorumağı diləyirəm.

**Nemət Əliyev, Şəki:**

*Hörmətli Prezidentimiz!*

Bütün dünyanı bürüyən koronavirus xəstəliyinə qarşı mübarizədə Respublikamızda Sizin rəhbərliyinizlə böyük işlər görülür. Biz hər gün televiziyada Sizin çıxışlarınızı diqqətlə dinləyirik. Sizin imzaladığınız qərarları hər gün eşidirik. Koronavirus xəstəliyi vaxtı kənd təsərrüfatı məhsulları istehsalçılarının xərclərini qarşılamaq məqsədilə ehtiyat fondunuzdan ayırdığınız vəsaitlərə, sadə kəndlilərin zəhmətinə verdiyiniz dəyərə

# Xalqdan Prezidentə ETİMAD:
# “Biz həmişə Sizə güvənmişik!”

görə sizə öz minnətdarlığımızı bildiririk. Sizə yorulmaz fəaliyyətinizdə yeni uğurlar arzu edir, arxanızda olduğumuzu bilməyinizi istəyirik.

**İbrahim Şıxməmmədov, Balakən:**

*Möhtərəm Prezident, cənab Ali Baş Komandan!*
Sizi salamlayır və bu məktubumda Sizə dərin təşəkkürümü bildirmək istəyirəm.Bu çətin günlərdə - ölüm kabusunun insanların aldığı hər nəfəsdə dolaşarkən xalqla birlikdə olduğunuza, COVID-19 pandemiyasının ölkəmizdə qarşısının alınması üçün qabaqlayıcı tədbirlər gördüyünüzə görə Sizə minnətdarıq.İnanırıq ki, dünya tezliklə bu bəladan xilas olacaq, həyatımız əvvəlki axarına düşəcəkdir. Gördüyünüz bütün işlərə görə çox sağ olun, cənab Prezident. Bütün ailəmiz adından Sizə minnətdarıq.Yaxşı ki, varsınız.Nə yaxşı ki, bu ölkənin Prezidenti Sizsiniz.Allah Sizi və ailənizi qorusun.

**Heydər Səmədov, Neftçala:**

*Cənab Prezident!*
Ölkəmizdə yeni növ koronavirus (COVİD-19) infeksiyasının genişlənməsi qarşısının alınması məqsədilə təsdiq etdiyiniz müvafiq preventiv və profilaktik tədbirlər, əhalinin aztəminatlı təbəqəsinin sosial dayanıqlığının təmin edilməsi, o cümlədən pandemiyadan əziyyət çəkən sahibkarlara maliyyə dəstəyi verilməsi, insanları sosial həmrəyliyə dəvət etməyiniz dövlət - vətəndaş birliyini əks etdirən əsas faktorlardandır. Fərdi sahibkar, fermer olaraq Sizin apardığınız məqsədyönlü daxili və xarici siyasəti tam dəstəkləyir və Sizin ölkəmizin çətin dönəmində dayanmadan, yorulmadan apardığınız islahatları alqışlayıram. Siz Azərbaycanın inkişafını təmin edirsiniz. Sizin pandemiya şəraitində Azərbaycanı necə qurtardığınız bir tarixdir. Yeni növ koronavirusun böyük insan tələfatı ilə nəticələnməsinin qarşısını almaq Sizin düşünülmüş, qabaqlayıcı tədbirlərinizin sayəsində mümkün olmuşdur. Fərdi sahibkar kimi sosial məsuliyyət dərk edərək Sizin bütün çağırışlarınızı tam şəkildə dəstəkləyirik.

**Şəfa Hacıyeva, Şamaxı:**

*Hörmətli cənab Prezident!*
Ölkəmiz koronovirus ilə bağlı aparılan mübarizədə zamanında verilmiş qərarlarınız sayəsində ən inkişaf etmiş dövlətlərlə bir pillədə durur.Bu dövlət rəhbərinin uzaqgörənliyinin nəticəsidir.Bizimlə bərabər ailəmizin, övladlarımızın rifahını düşündüyünüz üçün, bu çətin günlərdə virusun vurduğu ziyanları minimuma endirə bildiyiniz üçün Sizə ailəm və yaxınlarım adından dərin minnətdarlığımı bildirirəm.Sizin kimi rəhbəri olan dövlətin vətəndaşı olduğum üçün qürur duyuram.Hər zaman dövlətimizin rifahı naminə atacağınız qərarlarınızda yanınızdayam.

**Elşən Əsədov, Tərtər:**

*Hörmətli cənab Prezident!*
Azərbaycan xalqına vaxtında etdiyiniz güzəştlər, aztəminatlı ailələrin sosial durumlarını yaxşılaşdırmağa doğru atdığınız addımlar, işsiz və işaxtaran şəxslərə birdəfəlik ödəmələrin verilməsini 200 min nəfərdən 600 min nəfərə çatdırılması xalqımız üçün çox önəmli addımlardır. Vaxtında verdiyiniz göstərişlərə uyğun olaraq, dövlət sərhədlərinin bağlanılması xalqımız üçün çox önəmli addımdır. Biz həmişə Sizə güvənmişik və bu gündən sonra da güvənimizi sonsuz şəkildə davam etdirəcəyik. Biz fəxr edirik ki, Sizin kimi Prezidentimiz, ölkə başçımız, Ali Baş Komandanımız var. Cənab Ali Baş Komandan, mən Sizə ailəmiz adından minnətdarlığımı bildirirəm.

**Tatyana Ravçeyeva, İsmayıllı:**

*Hörmətli cənab Prezident!*
Siz həmişə olduğu kimi, bu çətin dövrdə də xalqın yanındasınız, ona daim qayğı göstərirsiniz. Sizin düşüncə və əməlləriniz insanların həyatının qorunmasına, onların sağlamlığının müdafiəsinə, maddi vəziyyətlərinin yaxşılaşdırılmasına yönəldilib. Sizin koronavirusla mübarizə istiqamətində qəbul etdiyiniz tədbirlər qəlbinizin mərhəmətindən, sevginizin dərinliyindən, təfəkkürünüzün gücündən və müdrikliyindən xəbər verir.
Ailəm adından və şəxsən öz adımdan Sizə - gözəl insan və müdrik rəhbərə öz xalqının qayğısına qaldığı üçün minnətdarlığımı bildirirəm. Əminəm ki, biz bu bəlanın öhdəsindən birlikdə gələcəyik. Biz daim Sizinləyik, biz birlikdə güclüyük! Allah Sizə cansağlığı versin, Sizi qorusun.

**Füzuli Abdullayev, Masallı:**

*Çox hörmətli cənab Prezident.*
Belə çətin günlərdə xalqımızın yanında olub, onun hər bir problemi ilə maraqlanıb həlli istiqamətində tapşırıqlar verdiyinizə görə mən bir Qarabağ qazisi kimi Sizi alqışlayıram. Xüsusilə də, koronavirusa qarşı mübarizədə vətəndaşlarımızın sağlamlığını hər şeydən vacib bilib məqsədəuyğun qərarlar verməyiniz bizi çox sevindirir. Hər çıxışınızda xalqımızın sağlamlığının Sizi nə qədər düşündürdüyünü, nə qədər narahat etdiyini hiss edirik.
Xalqımızı, millətinizi bu qədər sevdiyinizə və önəm verdiyinizə görə Sizə minnətdarıq.

**Şamil Əliyev, Ucar:**

*Möhtərəm cənab Prezident.*
Dünyanı cənginə almış koronavirus pandemiyası ilə mübarizədə tibbin ən inkişaf etdiyi ölkələrin aciz qaldığı, çətin vəziyyətə düşdüyü halda, Sizin uzaqgörən siyasətiniz nəticəsində Azərbaycanımızda səmərəli qabaqlayıcı tədbirlər görülmüşdür. Siz Azərbaycan vətəndaşlarının, eləcə də şəhid ailələrinin sağlamlığının qorunması istiqamətində qətiyyətli addımlar atır, mühüm qərarlar qəbul edirsiniz. İnanırıq ki, Sizin müdrikliyiniz sayəsində xalqımız tezliklə bu bəladan xilas olacaqdır.
Cənab Prezident, Azərbaycan vətəndaşı olmağımızla, Sizin kimi dövlət başçımızla qürur duyuruq. Uca Tanrı Sizi və ailənizi qorusun.

**Roza Cəlilova, Bakı:**

*Hörmətli cənab Prezident.*
Sizin ölkəmizin inkişafı, xalqımızın rifah halının yüksəldilməsi uğrunda apardığınız düzgün siyasət bizi hər zaman sevindirir və fərəhləndirir. Böyük ürəyinizlə bu çətin günlərdə xalqımıza göstərdiyiniz kömək və xeyirxah əməlləriniz əvəzolunmazdır, alqışlara layiqdir.
Birlik - dirilikdir. Biz Sizin ətrafınızda sıx birləşərək böyük qüvvəyə çevriləcək və koronavirus pandemiyasının sınağından tezliklə alnıaçıq keçəcəyik. Mən 91 yaşımda buna ümid edirəm və inanıram.
Cənab Prezident, Sizə tutduğunuz ali dövləti vəzifədə yeni uğurlar, möhkəm cansağlığı, uzun ömür, başda Siz olmaqla xalqımıza Ulu Tanrıdan kömək diləyirəm.

**Yasin Şıxlı, Zərdab:**

*Hörmətli cənab Prezident.*
Dünyamız çətinliklə üzləşib. Bütün dünya ölkələri koronavirus pandemiyasının qarşısında çətin durumda qaldığı halda, Azərbaycan vətəndaşı heç nədən korluq çəkmədən rahat yaşayır.
Sağlamlığımızı düşündüyünüzə, qayğımıza qaldığınıza görə Sizə təşəkkür edirik. Bir vətəndaş kimi, daim Sizi dəstəkləyir və Sizinlə qürur duyuruq.
Allahdan Sizə uzun, sağlam ömür arzulayırıq.

**Vaqif Mikayılov, Bakı:**

*Möhtərəm cənab Prezident.*
Qəzetlərdən oxuyur, televiziyalardan görürük ki, koronavirus səbəbindən bütün dünya iflic vəziyyətindədir. İş yerləri bağlanıb, ölkə iqtisadiyyatları deməк olar donub. Sizin pandemiyanın ilk günlərindən vəziyyəti düzgün qiymətləndirib çox ciddi tədbirlər görməyinizin nəticəsidir ki, bu gün ölkəmizdə insanlar bu virusun fəsadlarını demək olar hiss etmirlər.
Azərbaycanımıza, xalqımıza sahib çıxdığınız üçün Sizə sonsuz təşəkkür edirəm. Bu məsuliyyətli fəaliyyətinizdə Sizə yeni uğurlar, cansağlığı və uzun ömür arzulayıram. Allah Sizi, Mehriban xanımı, övladlarınızı qorusun. Amin.

**Bəhram Məmmədzadə, Ağdaş:**

*Möhtərəm cənab Prezident.*
Şəfqət, mərhəmət, humanizm kimi keyfiyyətlər həmişə Sizin və Mehriban xanım üçün həmişə ən mühüm həyati dəyərlər olmuşdur. Bu gün də belədir.Bütün dünyada tüğyan edən koronavirus pandemiyası ilə mübarizədə Siz bu keyfiyyətlərinizi bir daha nümayiş etdirdiniz.
Ölkəmizdə xüsusi karantin rejimini tətbiq edərək Azərbaycan xalqını qoruduğunuz, qayğımıza qaldığınız üçün özümün və ailəmin adından Sizə təşəkkür edirəm.Sizinlə fəxr edirik. Hər şeyə görə çox sağ olun.

**İmanverdi Ağayev və başqaları, Lənkəran:**

*Zati-aliləri, cənab Prezident.*
Koronavirus təhlükəsi hazırda bütün dünyanı təhdid edir. Bu çox dəhşətli bəladır. Biz ölkə vətəndaşları Sizin rəhbərliyiniz ilə bu bəlaya qarşı görülən tədbirləri ürəkdən bəyənirik. Sizə təşəkkür edirik ki, bizi bu bəladan qorumaq üçün nə lazımdırsa edirsiniz. Xüsusilə ölkəyə gələn vətəndaşlar üçün yaradılan şəraitə, karantində olan insanlara göstərilən yüksək tibbi xidmətə və müalicəyə görə Sizə minnətdarlığımızı çatdırırıq.
Cənab Prezident, Sizin və Mehriban xanımın qayğıkeş, humanist münasibətiniz bizi çox ruhlandırır. İnanırıq ki, hamımız sağlam və xoşbəxt olacağıq. Allah Sizi qorusun.

**Zakir Mirzəyev, Bakı:**

*Möhtərəm Prezidentimiz.*
Dövlətimizin və xalqımızın üzləşdiyi bu çətin günlərdə vətəndaşlarımıza göstərdiyiniz yardıma və dəstəyə görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya ailəm adından və şəxsən öz adımdan dərin təşəkkürümü bildirirəm. Həm işsizlərə, həm də iş sahiblərinə dövlətin yardım əlini uzatması Sizin qayğıkeşliyinizin, mənəvi cəhətdən nə qədər zəngin təbiətə malik olduğunuzun göstəricisidir.
Siz bununla bir daha sübut edirsiniz ki, xalqımızın sağlamlığının keşiyində dayanmısınız, dövlətimizi bu çətin iqtisadi vəziyyətdən çıxarmağa qadirsiniz. Bu şərəfli vəzifədə Sizə yeni uğurlar və tükənməz enerji arzulayıram.
Azərbaycan xalqı Sizinlədir.

**Kəmalə Məmmədova, Gəncə:**

*Möhtərəm cənab Prezident.*
Koronavirus pandemiyası bəşəriyyətə hücum edəcək, böyük ölkələri belə qarşısında diz çökdürür. Sərhəd tanımayan bu virusa qarşı vaxtında məsuliyyətli və uzaqgörən davranmağınız xalqımızı böyük itkilərdən qorudu. Buna görə Sizə dərin minnətdarlıq bildiririk.
Bu gün ölkəmiz pandemiya ilə mübarizədə dünyaya nümunədir. Əhalin sosial müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlər də vətəndaşların rifahını qoruyur.
Vaxtında görülən tədbirlərə görə Sizə bir daha təşəkkür edir, “çox sağ olun” deyirik.

**Pünhan Əlizadə, Saatlı:**

*Möhtərəm cənab Prezident.*
Koronavirus pandemiyası dünya ölkələrinə, o cümlədən hegemon dövlətlərə müharibə elan edib, bütün ölkələrin iqtisadiyyatlarına güclü zərbə vurub. Qlobal böhrana baxmayaraq, Sizin tədbirli siyasətiniz və qətiyyətli mövqeyiniz sayəsində Azərbaycanda vəziyyət nəzarət altında saxlanılır.
Möhtərəm Prezident, əmin ola bilərsiniz ki, xalqımız Sizə inanır və yalnız Sizə güvənir. Əminik ki, Sizin müdrik rəhbərliyiniz sayəsində dövlətimiz bu vəziyyətdən qısa müddətdə mətanətlə çıxacaqdır.
Nə xoşbəxtik ki, Vətənin bu çətin günündə daim xalqının yanında olan, ürəyi xalqı ilə döyünən Prezidentimiz var. Belə bir gündə Siz xalqımıza dayaqsınız. Bilin ki, biz də hər zaman Sizin arxanızdayıq.

# Ölkəmizdə koronavirus pandemiyası ilə əlaqədar əhalinin məşğulluq imkanlarının artırılması prioritet fəaliyyət istiqamətlərindən biridir



## Milli Məclisin deputatı Eldəniz Səlimovun yap.org.az-a müsahibəsi

***- Eldəniz müəllim, məlum olduğu kimi, bütün dünya ölkələri, o cümlədən Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizəyə səfərbər olunub. Ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlər haqqında fikirlərinizi bilmək istərdik...***

- Bilirsiniz ki, bu gün bütün dünya koronavirus pandemiyasının təhdidi altındadır. Bəli, hazırda bütün ölkələr pandemiya ilə mübarizəyə səfərbər olunub. Belə bir şəraitdə Azərbaycan xalqının sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər, xüsusilə də genişmiqyaslı sosial dəstək tədbirləri bir çox ölkələr üçün nümunədir.

Respublikamızda ilk növbədə, yaranmış vəziyyətdən əziyyət çəkən vətəndaşların problemləri həll olunur. Bu məqsədlə böyük məbləğdə vəsait ayrılıb, pandemiyaya görə öz işini müvəqqəti olaraq itirən 600 mindən çox insan dövlət tərəfindən dəstəklə təmin edilir. Eyni zamanda, işsizlərlə bağlı problemlər öz həllini tapır, əhalinin sosial rifahını qorumaq üçün digər mühüm addımlar atılır. Bu, bir tərəfdən liderin siyasi iradəsi, digər tərəfdən dövlətin iqtisadi gücü sayəsində mümkün olur. Mövcud reallıq Azərbaycan dövlətinin neqativ tendensiyaları layiqli qarşılamaq, zamanın istənilən çağırışına cavab vermək iqtidarında və əzmində olduğunu nümayiş etdirir. Dövlətimiz məhz zəruri iqtisadi və maliyyə imkanlarına arxalanaraq daim ən çətin vaxtlarda xalqın rifahının qorunmasına və özəl sektorun inkişafına öz dəstəyini göstərib. Hazırda da bu proses davam etməkdədir.

***- Bu istiqamətdə Nazirlər Kabineti tərəfindən icra olunan Tədbirlər Planının əhəmiyyətini necə qiymətləndirirsiniz?***

- Cənab Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq koronavirus pandemiyasının əhaliyə mənfi təsirlərini azaltmaq məqsədilə aparılan genişmiqyaslı tədbirlər öz nəticələrini verir, vətəndaşlar tərəfindən böyük razılıqla qarşılanır. Bu tədbirlər sırasında məşğulluğa və sosial rifaha dəstək xüsusi yer tutur. Dövlətimizin başçısının 2020-ci il 19 mart tarixli Sərəncamının icrası ilə bağlı təsdiqlənmiş Tədbirlər Planında məşğulluğa və sosial rifaha dəstək məqsədilə 4 istiqamət üzrə 10 tədbir əksini tapıb. Aprelin 17-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən elan edilən yeni dəstək tədbirləri ilə 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətinə 600 milyon manat vəsait ayrılıb.

İnsanların sosial müdafiəsi getdikcə daha da gücləndirilir. Pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən insanların əməkhaqlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən qarşılanır və bu kateqoriyaya aid olan insanların sayı 300 mindən çoxdur. Eyni zamanda, 300 minə yaxın mikro sahibkarın maliyyə vəziyyətinin təmin edilməsi üçün dövlət böyük maliyyə vəsaiti ayırıb. Beləliklə, yalnız bu kateqoriyaya aid olan 600 minə yaxın insan dövlətdən maddi dəstək alır. Dövlət sektorunda işləyənlərin əməkhaqları tam ödənilir. Bu, dövlətimizin humanist mahiyyətini, onun siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını bir daha göstərir.

Dövlət və qeyri-dövlət sektoru üzrə iş yerlərinin və işçilərin əməkhaqqı gəlirlərinin qorunması üçün məqsədyönlü işlər aparılıb. Elektron sistem üzərindən gündəlik nəzarət həyata keçirilib. Ümumilikdə 1 milyon 629 min işçinin, o cümlədən dövlət sektoru üzrə 910 min, özəl sektor üzrə 719 min işçinin əməkhaqqı saxlanmaqla məşğulluğu təmin edilib.

Hər hansı əsassız ixtisarlara yol verilməməsi üçün bütün dövlət qurumlarına müvafiq tapşırıq verilib. Müəyyən edilmiş kvota çərçivəsində həyati vacib qurumların fəaliyyətini davam etdirməsi üçün minimal sayda işçi cəlb olunub. Əməkhaqqı saxlanılmaqla məzuniyyətə göndərilən digər işçilərin gəlirlərinin davamlılığı təmin edilir. Pandemiya ilə əlaqədar qeyri-dövlət sektoru üzrə işçilərin əsassız yerə işdən çıxarılması, ixtisarına yol verilməməsi, özəl sektorda iş yerlərinin qorunması diqqətdə saxlanılır. Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Əmək müqaviləsi bildiriş" e-sistemi üzərindən əvvəlcədən işəgötürənlərə müvafiq bildiriş-xəbərdarlıq göndərilib, bu məsələyə gündəlik nəzarət edilir.

Qeyri-dövlət sektorunda iş yerlərinin qorunması, xüsusilə də əmək müqavilələrinin sayının artması işəgötürənlərin sosial həmrəylik prinsipinə sadiqliyini göstərir. Dövlət tərəfindən təqdim olunan dəstək paketləri və inzibati tədbirlər nəticəsində əmək müqavilələrinin sayında aprelin 1-dən etibarən 55 minlik, yanvarın 1-i ilə müqayisədə isə 77 minlik artıma nail olunub.

Bununla yanaşı, koronavirus pandemiyasından zərərçəkmiş sahələrdə çalışan muzdlu işçilərə və fərdi sahibkarlara maliyyə dəstəyi göstərilir. Pandemiyanın zərər vurduğu fəaliyyət sahələrində çalışan, əmək müqaviləsi olan 300 min muzdlu işçinin əməkhaqlarının müəyyən hissəsinin ödənilməsi üçün sahibkarlara dövlət tərəfindən 215 milyon manat maliyyə dəstəyinin göstərilməsi nəzərdə tutulur. Həmçinin COVID-19 pandemiyasının zərər vurduğu fəaliyyət sahələrində sahibkarlıq fəaliyyəti göstərən 300 min fərdi sahibkara dövlət tərəfindən 80 milyon manat həcmində maliyyə dəstəyinin göstərilməsi planlaşdırılır.

***- Belə bir şəraitdə əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində görülən işlər hansı səviyyədədir?***

- Pandemiya ilə əlaqədar əhalinin məşğulluq imkanlarının artırılması da prioritet fəaliyyət istiqamətlərindən biridir. Həmin məqsədlə məşğulluq orqanlarının fəaliyyəti gücləndirilib. DOST İş Mərkəzi vasitəsi ilə aprel-may ayları üzrə 50 min ödənişli ictimai iş yerinin yaradılmasına başlanılıb. Bunun üçün 30 milyon manat vəsait ayrılıb. Artıq 5 min şəxs işə cəlb edilib. Həmin ictimai iş yerləri əsasən dezinfeksiya, sosial xidmətlər və digər istiqamətləri əhatə edir.

Ümumilikdə ictimai iş yerlərinin sayı 90 minə çatıb. Qeyd edək ki, xüsusi karantin rejimi başlayanadək 38 min şəxs bu işlərə cəlb edilib və hazırda onlar işləməyə davam edirlər. İki ay müddətinə haqqı ödənilən ictimai işlər üçün dövlət büdcəsindən 30 milyon manat ayrılıb.

İşsizlər və qeyri-formal işlədiyinə görə, pandemiya nəticəsində işsiz qalan şəxslərə dəstək mexanizmləri bir neçə tədbiri əhatə edir. Bunlardan ən mühümü ölkə üzrə yaşayış minimumu olan 190 manat məbləğində birdəfəlik ödəmənin həyata keçirilməsidir. Aprelin 7-də Nazirlər Kabineti bununla bağlı müvafiq qərar qəbul edib və çox qısa müddətdə, cəmi iki gün sonra ödənişlərə başlanılıb. Aprelin 9-dan 17-dək olan müddətdə ümumilikdə 140 min işsiz üçün birdəfəlik ödəmə təmin edilib. Prezidentin tapşırığı ilə birdəfəlik ödəmə 600 min şəxsə ödəniləcək və aprel-may aylarını əhatə edəcək.

İki ay müddətində 190 manat birdəfəlik müavinət verilməsi üçün dövlət büdcəsindən 70 milyon manat vəsait ayrılıb. Karantin müddəti uzandığı halda birdəfəlik ödəmə - 190 manat növbəti aylarda da veriləcək.

Sosial müdafiə sahəsində nəzərdə tutulan tədbirlərdən biri də işsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinin genişləndirilməsidir. 2020-ci ilin aprel-dekabr ayları üzrə bu tədbir 20 min nəfəri əhatə edəcək və bu məqsəd üçün İşsizlikdən Sığorta Fondu hesabına 20 milyon manat ayrılacaq. Əmək müqaviləsinin müddəti bitmiş şəxslərə də işsizlikdən sığorta ödənişi şamil ediləcək. Belə ki, işsizlikdən sığorta ödənişi ancaq vətəndaşın iradəsindən kənar olan işsizlik səbəblərindən ödənilirdi. Yəni, əgər vətəndaş öz ərizəsi ilə, yaxud onunla imzalanan müqavilənin müddəti başa çatdığına görə işdən çıxırdısa, onlara işsizlik sığortası ödənilmirdi. Hazırda bununla bağlı silsilə tədbirlər hazırlanır. Müvafiq qanunvericiliyə dəyişikliklər edildikdən sonra müddətli müqavilələr üzrə müqavilə müddəti bitən şəxslərə də işsizlikdən sığorta ödəniləcək.

Tədbirlər planının digər istiqamətlərindən biri özünüməşğulluq proqramlarının genişləndirilməsidir. Bu çərçivədə 2020-ci il ərzində 12 minə yaxın ailənin özünüməşğulluq proqramına cəlb edilməsi nəzərdə tutulur. Burada həm dövlət vəsaitləri, həm Dünya Bankının, həm də özəl banklarımızın vəsaitləri birgə nəzərə alınır. Bunun üçün İşsizlikdən Sığorta Fondundan 70 milyon manat ayrılıb. Proqramın genişləndirilməsi ilə bağlı Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi ilə əməkdaşlıq edilir. Bu əməkdaşlıq çərçivəsində hər il 250 ailə özünüməşğulluq proqramlarına cəlb olunacaq.

Banklarla da bu istiqamətdə əməkdaşlıq həyata keçirilir. Aprelin 8-də banklar tərəfindən proqram iştirakçılarına aktivlər verilməsinə başlanılıb. Dünya Bankı ilə də başlanan birgə layihə nəticəsində hər il 5 min ailənin özünüməşğulluğu təmin ediləcək. Həmçinin BMT-nin İnkişaf Proqramı ilə birgə 500 əlilliyi olan şəxsin biznesə çıxışına dəstək verilir.

## Oleq Panfilov: "Ermənistanın gələcəyi olmayacaq"

"Təəssüf hissi güclənir - Ermənistan heç də müasir ölkəyə çevrilmir, öz liberal söhbətləri ilə Rusiya əyaləti olaraq qalmaqdadır". SİA xəbər verir ki, bu fikirləri feysbuk hesabında Gürcüstanlı publisist Oleq Panfilov yazıb.



Onun sözlərinə görə, əgər Ermənistan Qarabağ probleminin həllinə getməsə gələcəyi olmayacaq: "Qarabağ problemini həll etməsələr, gələcək olmayacaq, variantsız, necə ki, Çakvidə deyirlər"

***Rövşən***

## Dövlət sərhədindən 17 kq-dan artıq narkotikin keçirilməsinin qarşısı alınıb

***Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilir.***

DSX-nın Mətbuat MərkəzindənSİA-ya verilən məlumata görə, son həftə ərzində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının əməkdaşlarının sayıqlığı nəticəsində 17 kq 290 qram narkotik vasitənin və 195 ədəd metadon m40 həbinin, 1 ədəd 9 mm-lik "Maqnum" tapançasının, 1 ədəd tapançaya məxsus daraq və 28 ədəd patronun dövlət sərhədindən keçirilməsinin qarşısı alınıb.

Belə ki,15 aprel tarixində "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində iki şəxsin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətinə doğru hərəkətini aşkar edən sərhəd naryadı "Dayan" əmrini verib. Geriyə qaçmağa cəhd göstərən sərhəd pozucularını saxlamaq üçün havaya xəbərdarlıq atəşi açılıb və təqib edilərək yaxalanıblar. İran İslam Respublikasının vətəndaşı olan 2 sərhəd pozucusunun üzərinə baxış zamanı 1 kq 725 qram heroin, 1 kq 800 qram marixuana, 1 kq 335 qram tiryək, 400 qram metamfetamin və 195 ədəd metadon m40 həbi aşkar edilərək götürülüb.



Eyni zamanda 19 aprel tarixində "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində dövlət sərhədinin qarşısı pozulması cəhdinin qarşısı alınıb. Sərhəd pozucusu geriyə qaçıb, hadisə yerindən ümumi çəkisi 12030 qram olan narkotik maddə (11355 qram marixuana, 620 qram heroin, 55 qram metafetamin-kristal), 1 ədəd 9 mm-lik "Maqnum" tapançası, 1 ədəd tapançaya məxsus daraq və 28 ədəd patron aşkar olunaraq götürülüb. Faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# "Prezident sosial qrupdan olan vətəndaşın həyatına xüsusi həssaslıqla yanaşır"

***"COVID-19 infeksiyası dünyada geniş vüsət almasına baxmayaraq, hazırda ölkə vətəndaşlarının normal həyat şəraitinin pozulmaması və insanların təhlükəsizliyinin təmin edilməsi Azərbaycan dövləti üçün prioritet məsələdir. Bu baxımdan Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi və məsələnin mənfi təsirlərini minimuma endirmək məqsədilə bir sıra tədbirlər həyata keçirilir".***



Bu fikirləri SİA-ya açıqlamasında politoloq Şəbnəm Həsənova deyib. İlkin olaraq koronavirus infeksiyası ilə ön cəbhədə mübarizə aparan səhiyyə işçilərinin əməyi yüksək dəyərləndirildiyini deyən politoloq söyləyib ki, yaşlı insanlara yardım edən, onların gündəlik qayğıları ilə yaxından maraqlanan sosial işçilərin də əməyi yüksək qiymətləndirildi: "Prezident İlham Əliyevin "Xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsində iştirak edən işçilərin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Sərəncamı 65 yaşdan yuxarı vətəndaşlara sosial xidmətlər göstərən sosial işçilərə verilən yüksək dəyər, həm də dövlətin onlara olan diqqət və qayğısının bariz nümunəsidir".

Ş. Həsənova söyləyib ki, koronavirus pandemiyası ilə mübarizədə fərqlənən hər bir vətəndaş özünü dövlət qayğısından kənarda hiss etmir: "Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi, əhali üzrə elektrik enerjisinin aylıq istehlak həcminin tənzimlənməsi kimi müsbət istiqamətdə atılan addımlar bir daha sübut edir ki, ölkə başçımız hər bir təbəqədən və sosial qrupdan olan vətəndaşın həyatına xüsusi həssaslıqla yanaşır".

O qeyd edib ki, Cənab Prezidentin uğurlu sosial siyasəti nəticəsində bu günə qədər 80 min ailə, 300 mindən artıq fərd ünvanlı sosial yardım proqramı ilə əhatə olunub: "Məhdudlaşdırıcı tədbirlərin mərhələli sərtləşdirilməsi, eyni zamanda, pandemiyadan ziyan çəkmiş sahələrdə çalışan insanların sosial müdafiəsinin təmin edilməsi birbaşa Prezidentimizin yürütdüyü praqmatik və çevik siyasətin uğurlu təzahürüdür. Ölkə başçımızın şəxsi təşəbbüsü və nəzarəti ilə inşa edilən 575 çarpayılıq "Yeni klinika" tibb müəssisəsi bu gün ölkəmizin ən müasir səhiyyə ocağıdır. Bundan əlavə, ölkəmizdə fəaliyyət göstərən 18 laboratoriya tibb işçilərinə bu amansız xəstəliklə mübarizə apararkən geniş imkanlar yaradır. Bundan əlavə, cənab Prezidentin Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə keçirdiyi videobağlantı formatında iclasında ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün 200 min əvəzinə 600 min insana dövlətin iki ay ərzində hər ay 190 manat vəsait verməsi barədə tapşırığı nəinki ölkə başçımızın uğurlu sosial siyasətinin, bilavasitə və xüsusilə onun yüksək humanist keyfiyyətinin ən aydın ifadə formasıdır. Bu baxımdan tam əminliklə deyə bilirik ki, İlham Əliyev hər bir sosial təbəqə nümayəndəsi olan vətəndaşın Prezidentidir".

# "Pandemiyanın yayılma coğrafiyası genişlənsə neftin qiyməti ucuzlaşacaq"



"Öncədən proqnozlaşdırıldığı kimi OPEK+ hasilatın azaldılması ilə bağlı son qərarı ilə neftin dünya bazar qiymətini artırmağı hədəfləmirdi. Çünki nəticə etibarilə neft bazarında koronavirus pandemiyası səbəbindən tələbin azalması və əksinə təklifin əvvəlki dövrlər kimi stabil qalması, hətta mart ayında artması müşahidə olunurdu. Baxmayaraq ki, OPEK+ öz tarixində ən böyük azalmaya getdi, amma nəticə etibarilə yenə də neft bazarında təklifin tələbi üstələməsi müşahidə olunur. Xüsusən pandemiya qiymətləndirmələrə görə neft bazarında təxminən tələbin 20 milyon barel gündəlik olaraq azalmasına gətirib çıxarıb. OPEK həmin tələb azalmasının təxminən yarısını kompensasiya edib. Lakin buna baxmayaraq yenə də təklif tələbi üstələyib". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü, iqtisadçı ekspert Vüqar Bayramov deyib.

Ekspertin sözlərinə görə, neft bazarına çıxarılan neftin həcmi neftə olan tələbdən daha çoxdur: "Bu da öz növbəsində qiymətlərin azalmasına səbəb olur. OPEK+ anlaşmasının bazara psixoloji təsirləri var idi. Amma nəticə etibarilə, xüsusən də brend markalı neftin qiymətində kəskin azalmaların qarşısının alınmasına hesablanmış addım idi. OPEK+ anlaşmaya əməl etsə də belə bu bazardakı mövcud tarazlığı dəyişə bilmir. OPEK daha böyük azalmalara getməkdən ehtiyatlanır, çünki OPEK+ a üzv olan ölkələr üçün bazardakı pay çox önəmlidir. Ölkələr bazar payını qoruyub saxlamağa çalışır. Nəticə etibarilə daha böyük azalmalar həmin ölkələrin bazar payının azalmasına səbəb ola bilər ki, bu da sonradan həmin bazar payının bərpa edilməsində çətinliklər yarada bilər. Neft bazarında mövcud vəziyyətə təsir göstərə bilər".

V.Bayramov qeyd edib ki, hazırda neft bazarında 3 ölkə Rusiya, Səudiyyə Ərəbistanı və ABŞ aparıcı neft hasil edən ölkələrdir: "Amma Rusiya-Səudiyyə Ərəbistanı anlaşması da bir daha təsdiq edib ki, hələlik neft ölkələrinin əvvəlki dövrlərdən fərqli olaraq bazara təsir imkanları məhduddur. Ya xeyli kəskin azalmalara gedilməlidir, ya da mövcud qiymətlə neft ölkələri razılaşmalıdır. Neftin dünya bazarında kəskin artımlar nə gözlənilmir, nə də proqnozlaşdırılmır. Yalnız postpandemiya dövründə qiymətlərin yenidən arta biləcəyi proqnozlaşdırılır, amma koronavirusun aktiv olduğu dövrdə qiymətlərin artması gözlənilən deyil".

Deputat vurğulayıb ki, xüsusən də WTI markalı neftin qiymətindəki kəskin azalmalar ABŞ-da koronavirusun yayılma coğragiyasının genişlənməsi ilə bağlıdır: "Təbii ki, ABŞ-da benzinə olan neftin kəskin azalması neftin qiymətinə birbaşa təsir göstərib. Bu kontekstdə hələki pandemiyanın aktiv olduğu dövrdə qiymətlərdə artımların olmaması ilə yanaşı, güman olunur ki, pandemiyanın yayılma coğrafiyası genişlənərsə, biz brend markalı neftin qiymətində də azalmalar müşahidə edə bilərik və bu brend markalı neftin qiymətinin 20 dollara qədər azalmasına gətirib çıxara bilər".

***Aysel Məmmədova***

# "Azərbaycanda sosial rifaha dəstək məqsədilə fəal siyasət aparılır"

"Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə koronavirus (COVID-19) pandemiyasına qarşı genişmiqyaslı tədbirlər görülür, məşğulluğa və sosial rifaha dəstək məqsədilə fəal siyasət aparılır". Bunu SİA-ya açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi, politoloq İlyas Hüseynov deyib.



O bildirib ki, dövlət başçısının 19 mart 2020-ci il tarixli sərəncamının icrası ilə bağlı təsdiqlənmiş Tədbirlər Planında məşğulluğa və sosial rifaha dəstək məqsədilə 4 istiqamət üzrə 10 tədbirin əksini tapması, bununla yanaşı, 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətinə 600 milyon manat vəsaitin ayrılması koronavirus pandemiyası dövründə ölkəmizdə sosial sahədə görülən işlər prioritet təşkil etdiyini göstərir.

Politoloq söyləyib ki, hazırda ölkəmizdə həyata keçirilən dəstək proqramlarında iş yerlərinin və əməkhaqlarının qorunması ən ümdə vəzifədir: "Bu məqsədlə dövlət və qeyri-dövlət sektoru üzrə iş yerlərinin və işçilərin əməkhaqqı gəlirlərinin qorunması üçün mühüm işlər aparılıb, həmçinin elektron sistem üzərindən gündəlik nəzarət həyata keçirilib. Bu işlərin əhatə dairəsinə nəzər salanda görürük ki, 1 milyon 629 min işçi (o cümlədən, dövlət sektoru üzrə 910 min, özəl sektor üzrə 719 min) dövlət qayğısını öz üzərində hiss edib".

Əhalinin məşğulluq imkanlarının artırılması məqsədilə də məqsədyönlü addımların atıldığını xüsusi vurğulayan İlyas Hüseynov qeyd edib ki, DOST İş Mərkəzi vasitəsi ilə aprel-may ayları üzrə 50 min ödənişli ictimai iş yerinin yaradılmasına başlanıb: "Bu məqsədlə 30 milyon manat vəsait ayrılıb. Artıq 5 min şəxsin işə cəlb edilməsi təmin edilib. Ümumilikdə ictimai iş yerlərin sayı 90 minə çatıb. Bununla yanaşı, işsizlər və xüsusi karantin rejiminə görə işini itirən qeyri-formal işləyən şəxslərə (190 manat) birdəfəlik ödəmənin verilməsi həyata keçirilir. Azərbaycan Prezidentinin qərarı ilə birdəfəlik ödəmə 600 min şəxsə ödəniləcək və aprel-may aylarını əhatə edəcək".

Politoloqun fikrincə, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində atılan daha önəmli məqamlar güzəştli işıq limitinin aprel-may aylarında 100 kilovatsaat həcmində artırılması, sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsidir.

# "10 minlərlə iş yeri yeni əmək müqavilələri ilə leqallaşdırıldı"



***"Sahibkarlıq subyektləri ölkə başçısının çağırışını yüksək tutaraq nəinki iş yerlərini bağladı, hətta, yeni əmək müqavilələrini bağlayaraq 10 minlərlə iş yerlərini leqallaşdırdı". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin üzvü deputat Azər Badamov ölkədə iş yerlərinin və əməkhaqlarının qorunması istiqamətində atılan addımlardan danışarkən deyib.***

O bildirib ki, xüsusi karantin rejiminin tətbiq olunması iqtisadiyyatın bir çox sektorlarında iş yerlərinin bağlanması və kütləvi işsizliyin yaranması təhlükəsini yaratmışdı və ölkə başçısı biznes strukrurlarına da iş yerlərinin bağlanmaması və dövlət dəstəyi göstəriləcəyi ilə bağlı çağırış etmişdi, vəziyyət onu göstərdi ki, sahibkarlıq subyektləri ölkə başçısının çağırışını yüksək tutaraq nəinki iş yerlərini bağladı, hətta, yeni əmək müqavilələrini bağlayaraq 10 minlərlə iş yerlərini leqallaşdırdı: "Dövlət başçısı iş yerlərinin və əməkhaqlarının qorunması məqsədilə Nazirlər Kabinetinə müvafiq tapşırıq verdi və işçi qrup yaradıldı. Müvafiq işçi qrup məşğulluq və sosial rifaha dövlət dəstəyinin göstərilməsi üçün proqram hazırladı. Bu proqram 4 tədbir və 10 istiqaməti özündə ehtiva edir. Bu tədbir və istiqamətlər ölkədə xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar iş fəaliyyəti dayanmış sahələrdə işləyənlərə əməkhaqlarının ödənilməsinə və əhalinin sosial müdafiəyə ehtiyacı olan təbəqəsinə dövlət dəstəyini göstərməkdən ibarət olmuşdur. Burada dövlət sektorunda işləyən və evdə qalmağa məcbur olmuş 910 min şəxsin əmək haqlarının ödənilməsi, qeyri-neft sektorunda çalışan 720 min nəfərdən çox şəxsə əməkhaqlarının ödənilməsinə dövlət dəstəyinin göstərilməsi, ödənişli iş yerlərinin sayının 90 minə çatdırılması, 12 min ailənin özünəməşğulluq proqramına cəlb edilməsi, xüsusi karantin dövründə işləməyən 600 min insana 190 manat yardımın göstərilməsi, ünvanlı sosial yardımın verilməsində şərtlərin sadələşdirilməsi və əhatə dairəsinin genişləndirilməsi və s. daxildir".

Millət vəkili qeyd edib ki, məşğulluq və sosial rifahla bağlı tədbirlər 2,5 milyon insanı əhatə edəcək və 3 milyard manata yaxın dövlət vəsaiti sərf olunacaqdır: "Ölkə başçısı qeyd etmişdi ki, bizim üçün prioritet insanların sağlamlığı və sosial rifahının müdafiəsidir. İcra olunan tədbirlər də bu istiqamətə xidmət edir və bu, bir daha dövlət siyasətinin təməlində Azərbaycan vətəndaşının dayandığının göstəricisidir. Bu çətin dövrdə Azərbaycan dövlətinin öz xalqının sosial müdafiəsinə bütün resursların cəlb edilməsini çox müsbət hal hesab edirəm və xalqımız bir daha inandı ki, onun qarantı alternativsiz Prezidentimiz və dövlətimizdir".

***Nigar Məmmədova***

# “Müxalifətin fəaliyyəti milli mənafelərimizə açıq düşmənçilikdir”

***Bəlli olduğu kimi, aprelin 14-də Prezident İlham Əliyevin Sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirədə Cənab Prezident ölkədəki iqtisadi durumdan, koronavirusun iqtisadiyyata təsirlərindən danışıb və müxalifətin dağıdıcı və düşmən mövqedə olduğunu bildirib. Söhbət etdiyimiz müsahiblərimiz Prezidentin müxalifətlə bağlı fikirlərinin əsaslı olduğunu bildirdilər.***

“Səs” qəzetinə açıqlamasında “Azadlıq Hərəkatçıları” Birliyinin sədri Təhmasib Novruzov bildirdi ki, Cənab Prezident indiyə kimi bəzi özünü siyasi müxalifət adlandırıb, əslində Azərbaycan dövlətçiliyinə qarşı savaş açanlar haqqında belə kəskin ifadə işlətməmişdi. Nədən, bilirsiniz? Çünki ölkə başçısı seçildikdən sonra hər zaman hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağını bəyan eləmişdi: “Hər zaman, bütün vədlərində sadiqlik nümayiş etdirən və digər xarakterik cəhətləri ilə yanaşı bu yüksək keyfiyyəti ilə də xalqın birmənalı sevgisini qazanan biri olaraq bu vədinə də daim əməl etmiş və heç vaxt bu yolundan dönməmişdir. Baxmayaraq ki, özlərini siyasi müxalifət kimi qələmə verib, xaricdəki anti-Azərbaycan qüvvələrin istəklərini icra edirdilər, yenə ölkə başçısı onları da ölkə vətəndaşı olaraq digərlərindən fərqləndirməmiş, qanunun verdiyi bütün hüquqlarını daim müdafiə etmişdir”.

T.Novruzovun sözlərinə görə, müxalif siyasət dəllallar vəziyyəti hansı həddə çatdırdılar ki, səbir və dözümü, təmkini ilə



dünya siyasilərinin də diqqətini cəlb edən ölkə başçısı bu bəyanatı səsləndirməyə məcbur oldu: “Məncə Cənab Prezident sözün əsil mənasında indiyə qədər görünməmiş təmkin nümayiş etdirərək, hətta şəxsinin ünvanına şər, böhtan deyən bu məxluqlara əhəmiyyət belə vermirdi. Ancaq indiki fəaliyyətləri, koronovirusun dünyanı lərzəyə saldığı bir zamanda sərgilədikləri mövqe sadəcə özünə deyil, ümumən dövlətçiliyimizə, milli mənafelərimizə açıq düşmənçilik fəaliyyətidir ki, ölkənin, dövlətin, milli mənafelərimizin, vətəndaşların sosial həyatinin qarantı olan bir Dövlət Rəhbəri kimi artıq buna seyrçi qala bilməzdi və qalmadı. Gərəkdir ki, bu qüvvələr ciddi düşünsünlər və qiymət versinlər ki, bu qədər təmkin göstərən Prezident necə oldu ki, bu fikirləri səsləndirməyə məcbur oldu? Bir daha deyirəm, Prezident şəxsinə ünvanlanan böhtanları, bəzən hətta təhqirləri müşahidə olunan üzdəniraq çıxışları görməzdən gələ bilərdi, lakin söhbət xalqın və dövlətin mənafelərindən gedirsə, bu mənafelərin müdafiəçisi kimi ona laqeyd qala bilməzdi”.

Təşkilat sədr onu da bildirdi ki, həmin qüvvələr bundan sonrakı fəaliyyətlərində bu mesajın ciddiliyini və tədbirlərə əl atılmasının labüdlüyünü qəbul etməli, əməllərində ciddi korrektə etməlidirlər: “Son illərin islahatları sübut edir ki, Prezident iqtidar, müxalifət olmasından asılı olmayaraq ölkənin mənafelərinə zidd fəaliyyət göstərən hər kəsi, hər bir qurumu yerində oturtmaqda qətiyyətlidir. Aparılan kadr islahatları, neçə-neçə etimaddan sui-istifadə edən yüksək çinli məmurlarla bağlı atılan ən ciddi addımlar da bunun dönməzliyindən xəbər verir. Belə olan təqdirdə, müxaliflik institutundan da sui-istifadə edənlərin yerlərinin göstərilməsi labüddür və həmin qüvvələr bunun fərqində olmağa borcludurlar. Prezidentin bu cür müxalifətçiliklə bağlı sərt mövqe ortaya qoymasında kimisə yox, özlərini təqsirkar bilsinlər və məncə bu fakt onların ifşası yolunda qətiyyətli addımların başlanğıcıdır”.

***Gülyana***

# Azərbaycan sosial standartları ən yüksək tətbiq etmiş ölkələrdəndir

***“Koronavirus pandemiyası dövründə Azərbaycan dövlətinin və xalqının bu vəziyyətdən salamat, həmçinin struktur pozulmadan çıxarılması üçün Azərbaycan Prezidentinin göstərişi ilə çoxsaylı addımlar atılıb. Bu addımların bir qismi dünya praktikasına arxalanırdı. Çünki dünyanın hər yerində bu problem olduğuna görə, bütün ölkələr hazırki çətin vəziyyətdən çıxmaq üçün addımlar atır. Atılan addımların daha effektiv nəticə verənləri başqa ölkələr tərəfindən də tətbiq olunub. Lakin Azərbaycanda atılan addımların əksəriyyəti orijinal addımlardır. Yerli vəziyyətə uyğundur və bir çoxu Azərbaycanın ideya müəllifliyi ilə tətbiq olunmuş prinsiplərdir”. Bunu SİA-ya açıqlamasında Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli deyib.***



Onun sözlərinə görə, atılan addımlardan ən vaciblərindən biri də əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün kifayət qədər orijinal və heç bir ölkədə tətbiq olunmayan addımlardır: “Bu baxımdan atılan bu addımlar vaxtaşırı dəyişilir. Bu zaman həm yerli şərait, həm ölkədəki vəziyyət nəzərə alınır. Zaman dəyişdikcə ümumi standartlar tətbiq olunmaqla yanaşı, eyni zamanda hər həftə, hər ay yeni standartlar tətbiq olunur. Məsələn sonuncu olaraq cənab Prezidentin göstərişi ilə karantin vəziyyəti uzadılıb, eyni zamanda vəziyyətin yumşaldılması üçün müəyyən addımlar atılıb. Təsərrüfat subyektləri olanlara tətbiq olunan karantin qaydaları nisbətən yumşaldılıb”.

M.Ələsgərli vurğulayıb ki, cənab Prezident iqtisadiyyatın çökməməsi üçün pandemiya dövrünün şərtlərinə uyğun qərarlar verməklə həm təsərrüfat işləri yürüdülür, həm də əhalinin bu dövrdə iqtisadi və sosial baxımdan çətinlik çəkməməsi üçün müəyyən standartlar tətbiq olunur: “Ona görə Azərbaycan sosial standartları ən yüksək tətbiq etmiş ölkələrdəndir. Bütün bunların nəticəsində deməkolar ki, cənab Prezident hər an xalqın vəziyyətini nəzərə alır və vəziyyətə uyğun olaraq yeni-yeni standartlar tətbiq edir. Azərbaycanın qəbul etdiyi qərarların orijinallığı məhz ondan ibarətdir ki, çevik standartlar hazırlanır və tətbiq olunur. Düşünürəm ki, pandemiya dövründən cənab Prezidentin vaxtında qəbul etdiyi qərarlar sayəsində Azərbaycan xalqı ən az itki ilə çıxmış bir xalq olacaq”.

***Aysel Məmmədova***

# Qaradağda piyadanın ölümü ilə nəticələnən yol qəzası baş verib

***Qaradağ rayonunun Qızıldaş qəsəbəsi ərazisində Bakı şəhər sakini S.Rüstəmov idarə etdiyi “Mitsubishi” markalı yük avtomobili ilə dönmə əməliyyatı aparan zaman yük yerində olan dəmir künclük yolun kənarında dayanmış paytaxt sakini İlkin Xankişiyevin baş nahiyəsinə dəyib.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, İ.Xankişiyev hadisə yerində ölüb. Faktla bağlı Qaradağ Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.



İLHAM

# Müxalifətə azar dəysə, nə baş verər?

***Dünyanı ağuşuna alan koronavirus infeksiyasına qarşı bütün dövlətlər, cəmiyyətlər birlik nümayiş etdirməklə mübarizə aparırlar. Bu mübarizədə əksər dövlətlər hələki ümidverici nəticələr əldə etməsələrdə Azərbaycan dünya üçün nümunəyə çevrilən uğurlar qazanmaqdadır. Məhz bu amil dövlət başçısının xalqla birliyinin başlıca təcəssümü hesab edilir. Həm də bu, ölkə Prezidentinin düzgün, operativ, praqmativ siyasət aparmasının bəhrəsi kimi qiymətləndirilir.***

Hər dəfə olduğu kimi, bu dəfə də dağıdıcı müxalifət xalqla bir yerdə olmaq, xalqın dərdinə şərik olub, bu bəladan birlikdə çıxmağa səy göstərmədi. Xarıcı maraqlı dairələrin maddi və mənəvi dəstəyinə arxalanmaqla sosial şəbəkələrdə ölkə həyatına qarşı şər və böhtan kampaniyası aparmağa, görülən və həyata keçirilən genişmiqyası işlərə kölgə salamağa cəhdlər göstərdilər. Bu kimi mövcud faktların reallığı dağıdıcı müxalifətin təfəkküründə xalqa qarşı ifratçılığın hökm sürməsi, dövlətə və milli maraqlara qarşı düşmən mövqedə durmalarının bariz nümunəsi sayıla bilər. Eyni zaman da, bu amil onların daxilindəki zəiflikləri nümayiş etdirir. Çünki radikal müxalifət xarici maraqlı dairələrin təlimatları əsasında fəaliyyətini qurduğundan milli maraqların əhəmiyyətinin nədən ibarət olduğunu anlamır. Yəni, ancaq siyasi sifariş həyata keçirən radikal müxalifət ölkədə demokratiyanın, vətəndaş cəmiyyətinin inkişaf etdirilməsinə təkan verə biləcək qüvvə kimi deyil, sırf ölkənin xaosa sürüklənməsinə çalışan reneqatlar birliyidir. Dağıdıcı müxalifətin daxilində siyasi reneqatların yer alması da onların nadir xüsusiyyətini üzə çıxarmış olur. Milli maraqlara düşmən kəsilən bu ünsürlər bir-birilərinə qarşı da, barışmaz mövqe sərgiləyirlər. Hər fürsət də, bir-birini gözdən salmaq üçün müxtəlif vasitə və üsüllardan istifadə edirlər. Müxalif düşərgə də, “ana müxalifət” iddiası ilə çıxış edən Müsavat və AXCP arasındakı gərginliklər qeyd edilənlərə misal ola bilər. Sosial şəbəkələrdə baş alıb-gedən söyüş və təhqirlərdən də aydın görünür ki, bu iki partiya bir-birinə güzəştə getmək fikrində deyillər və sona qədər mübarizələrini davam etdirəcəklər.

Dəhşət: Satqın satqına ağıl dərsi keçir

Görünən odur ki, müxalifətin dağıdıcı qanadı sivil, qarşılıqlı anlaşma məxrəcində mübarizə aparmaqdan uzaqdır. Hər zaman qarşıdurmaya, iğtişaş və xaosa üstün verib və bunların baş verməsinə çalışıb. Bu baxımdan Müsavat, AXCP, “Milli Şura” kimi tör-töküntüdən ibarət olan

təşkilat rəhbərləri cəmiyyətdə dağıdıcı ünsürlər olaraq tanınır və ittiham olunurlar. Əsasən də, AXCP sədri Ə.Kərimli və Müsavat başqanı A.Hacılı sanki, siyasi arenaya Azərbaycanda qarşıdurma yaratmaq, iğtişaşlar törətmək üçün gəliblər. Hər zaman bu cütlük təxribatçı əməlləri, pozucu açıqlamalar ilə gündəmdə olublar. Baxmayaraq ki, cəmiyyət onları bu cür əməllərinə görə, qınayıb, siayasətdən getmələrini tələb ediblər. Amma yenə də, bəd əmməllərindən əl çəkməyiblər. Məhz bu cür dirənişlərinə görə, rəhbərlik etdikləri partiyalarda belə, ciddi ixtilaflar, qarşıdurmalar yaranıb. Qubad İbadoğlu Müsavatın yeni başqanı A.Hacılının bədnam siyasi mübarizə metoduna etiraz əlaməti olaraq bir-neçə keçmiş müsavatçının iştitirakı ilə partiyadan ayrılaraq, “ADR” adlı hərəkat yaratdığını elan etdi. Sonrakı mərhələdə Tofiq Yaqublu və Yadigar Sadıqlıda A.Hacılı ilə qeyri-rəsmi də olsa yollarını ayırmağa qərar verdilər.

Müsavatla yanaşı AXCP-də də, vəziyyət acınacaqlı və kritikdir. Çünki, Ə.Kərimlinin apardığı siyasət şəxsi maraqlarına hesablanıb. Dəfələrlə, ətrafında olanları müxtəlif siyasi oyunlarının qurbanına çevirib. Bu da partiya daxilində cidd narazılıqlara gətirib çıxarıb. Zamanında Ə.Kərimlinin yanında olub, onun siyasi oyunlarının icraçıları olanlar yaxşı bilirlər ki, bu ünsür öz marağı xatirinə ən yaxın ətrafına belə satmaqdan çəkinməyib. Onunla eyni siyasi mübarizə yolunu bölüşənləri ən çətin günlərində ortalıqda buraxaraq yalnız öz mənafeyini düşünüb. Məhz buna görə də, AXCP dəfələrlə parçalanmalara düçar olub. Bu gün isə, AXCP suyu qurumuş dəyirmana bənzəyir. Sosial şəbəkələrdə insanları təhqir edib, şər və böhtanlar sələndirməsi ilə də, düşdüyü ağır vəziyyəti aradan qaldıra bilməyəcək. Yəni, kimsə, ona yardımçı olmayacaq. Hətta müxalif düşərgə də, təmsil olunan partiya funksionerləri də, ona bataqlıqdan çıxmasına əl uzatmayacaqlar. Çünki, Ə.Kərimli partiyadaşları ilə yanaşı düşərgə daxilindəki, partiya funksionerləri ilə də, bütün körpüləri yandırıb. “GAP”-ın sədri A.Şakiroğlu bildirib ki, Ə.Kərimli həmişə partiyadaşlarını şantaj etməklə, ətrafında saxlamaq istəyir. Bu da mənasızdır: “Kiminsə arxasında gizlənərək yazı yazıb, başqa bir insan adından yaymaq Ə.Kərimli xüsusiyyəti və “əxlaqıdır”. Fərarilik Ə.Kərimliyə məxsusdur. Çünki keçmişi ləkəli olan Ə.Kərimli həmişə narahat olacaq. Çünki AXCP sədri digər müxalifət liderlərinə qara yaxmaqla müxalifətdə monopolist olmasını təmin etmək yolu seçib. Düşünür ki, müxalifəti monopoliyaya ala bilərsə, bu gün əlinə oynadığı “5-ci kolon”un rəhbərindən daha çox bəxşiş alacaq. Bu səbəbdən də, bu eybəcər yolu davam etdirir”.

Bir sözlə, müxalifət partiyalarının bəzilərinin yaxın vaxtlarda yenidən parçalanması gözlənilləndir. Çünki, aparılan araşdırmalar və inkişaf edən proseslər bunu deməyə əsas verir.

# Putinin fikirlərinin arxasında nə dayanır?

***"Rusiya prezidenti Vladimir Putin "Rossiya" kanalına son müsahibəsində deyib ki, guya keçmiş SSRİ respublikalarının keçmiş böyük dövlətin bərpasıyla bağlı qorxuları tədricən aradan qaldırılır. Putin deyib ki, keçmiş respublikalar arasında inteqrasiyanın genişlənməsində qəribə heç nə yoxdur. Buna baxmayaraq, Putin mövcud reallığı bu şəkildə ifadə edib: "Təəssüf ki, inteqrasiya istənilən qədər irəli getməyib, halbuki bu mümkündür". Bu fikirləri SİA-ya politoloq Elxan Şahinoğlu deyib.***



Politoloqun sözlərinə görə, Vladimir Putin sonrakı cümləsində açıqlamasının mahiyyətini bu sözlərlə büruzə verib: "SSRİ-nin bərpası kimi fikirlərdən qorxmaq lazım deyil, birlik hamının xeyrinədir və bu qaçılmazdır". Putin keçmiş SSRİ respublikalarının birliyinin dünya bazarlarında rəqabət gücünü artıracağını vurğulayıb. Kreml sahibi keçmiş SSRİ-nin vahid dilinin, nəqliyyat infrastrukturunun və enerji qaynaqlarının olduğunu da xatırladıb. Putin birlikdə maraqlı olmayan qüvvənin də adını çəkib: Qərb.

Birincisi, Putin sonuncu cümləsində yeni heç nə deməyib. Həqiqətən Qərb SSRİ-nin bərpasını istəmir. Ancaq SSRİ-nin bərpasını heç Putinin haqqında danışdığı keçmiş SSRİ respublikaları, indiki müstəqil dövlətlər də istəmir. Putinin açıqlamasının heç bir yerində keçmiş SSRİ respublikaları müstəqil dövlətlər kimi adlandırılmır. Bununla Kreml sahibi bu dövlətlərə baxışını ortaya qoyur. Putin ətrafındakı dövlətləri Rusiya və Sovet imperiyasının tərkib hissəsi kimi qiymətləndirir. Təsadüfi deyil ki, Putin illər öncəsi verdiyi açıqlamada SSRİ-nin süqutunu əsrin böyük faciəsi adlandırmışdı. Aydındır ki, bunu deyən şəxs Rusiyanın qonşularını müstəqil dövlətlər kimi dəyərləndirə bilməz. Rusiyanın 2008-ci ildə Gürcüstana hərbi müdaxilə edərək Abxaziya və Cənubi Osetiyanı rəsmən işğal etməsini, 2014-cü ildə isə Krımı ilhaq etməsini və Donbasda Kiyevə tabe olmayan separatçı bölgə yaratmasını bu siyasətin tərkib hissəsi kimi dəyərləndirə bilərik.

İkincisi, Putin açıqlamasında "vahid dilə qayıdışa" işarə edərkən, hamının yenidən rus dilində danışması gərəkliyinə işarə edib. Putini başqalarının fikri maraqlandırmır, o öz xəyallarını reallaşdırmaq istəyir. Necə ki, Adolf Hitler başqa dövlətlərin ərazilərini işğal edərkən öz xəyallarını reallaşdırmaq istəyirdi. Ancaq indi fərqli əsrdir, güclər və maraqlar da fərqlidir. Yəni Putinin dediyi əsas deyil, əsas dünyadakı və bölgədəki qüvvələr nisbətidir.

Üçüncüsü, keçmiş SSRİ respublikalarından hansı biri imperiyanın yenidən bərpasını, Rusiyanın ağalığı ilə Qərblə münasibətlərinin korlanmasını və nəhayət, müstəqillikdən vaz keçməsini istəyir? Rusiyanın yaxın müttəfiqləri Qazaxıstan, Belarus və Ermənistan sayılır. Ancaq hətta bu 3 dövlət belə çətin ki, Putinin "SSRİ-ni başqa şəkildə bərpa edək" ideyasına dəstək versin. Rusiya ilə birləşməyə illərdir hazır olan Belarus belə sonda anladı ki, Moskvaya tərəfdaş yox, vassal lazımdır. Ona görə də Belarus prezidenti Aleksandr Lukaşenko vaxtilə özünün irəli sürdüyü Rusiya ilə ittifaq ideyasından vaz keçib.

Dördüncüsü, Putin eyni açıqlamada ziddiyyətli fikirlər söyləyib. SSRİ-nin başqa formada bərpasından danışan Putin sonrakı cümləsində deyib ki, Avrasiya İqtisadi Birliyinin yeni üzvlərlə genişləndirilməsi məsələsində tələsmək lazım deyil. Putin deyib ki, Avropa təcrübəsi göstərir ki, inteqrasiya proseslərində çətinliklər var və onlarla hesablaşmaq lazımdır. Putinin bu fikri ilə razılaşmamaq olmur. Ancaq inteqrasiyanın mövcüd çətinliklərindən danışan Putin eyni zamanda bundan daha sıx inteqrasiya olunması hədəflənən ikinci SSRİ-nin bərpasını necə mümkün hesab edir? Başqa aktual sual da var. İşğalçı Ermənistanla işğala məruz qalan Azərbaycan arasında inteqrasiya necə mümkündür? Bəziləri deyə bilər ki, axı Azərbaycan və Ermənistan Müstəqil Dövlətlər Birliyinin (MDB) də üzvüdürlər. Məsələ burasındadır ki, MDB amorf qurumdur. Putin isə MDB-dən və Avrasiya İqtisadi Birliyindən daha güclü təşkilat yaratmaq istəyir.

Putin "yeni ideyasını" maraqlı dövrdə irəli sürür. Dünya və elə Rusiyanın özü koronavirusla gərgin mübarizə aparır, xəstələrin və ölənlərin sayı artır. Rusiyada vəziyyət ağırdır, bir tərəfdən koronavirus, digər tərəfdən neftin qiymətlərinin düşməsi Rusiya iqtisadiyyatını iflic edib. Kreml sahibi bu problemləri necə həll edəcəyi və ölkənin bütövlüyünün gələcəyi haqqında düşünmək əvəzinə SSRİ-ni başqa formada bərpa etmək istəyir. Burda deyiblər, özünə umac ova bilmir, özgəyə əriştə kəsir".

# Elektron icazə və sms xidmətindən necə faydalanırıq?

***"Aprelin 5-dən Azərbaycanda tətbiq olunan elektron icazə ölkəmizdə "kölgə" iqtisadiyyatına qarşı mübarizəyə də öz töhfəsini vermiş oldu. Belə ki, 60 mindən çox vətəndaşımızla məhz karantin dövründə əmək və xidmət müqaviləsi imzalanıb". Bunu SİA-ya açıqlamasında Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev deyib. O bildirib ki, elektron icazə sisteminin tətbiqi nəticəsində işçilərinə icazə verə bilməyən bəzi şirkətlər, özəl qurumlar əməkdaşları ilə əmək və ya xidmət müqaviləsi bağlamağa məcbur oldular: "Bu, vətəndaşlarımızın həm iş yerlərinin rəsmiləşməsi, həm də sosial durumuna müsbət təsir edən amildir. Hesab edirəm ki, bu rəqəm ölkə başçısının hər zaman vurğuladığı "kölgə" iqtisadiyyatına qarşı mübarizədə də çox böyük rəqəmdir".***




Şöbə müdiri söyləyib ki, əməkdaşlar üçün icazənin alınması ilə bağlı təxminən 50 minə yaxın dövlət və özəl təşkilat, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar tərəfindən 922 min 639 icazə qeydiyyata alınıb: "Bunlardan hazırda 739 min 608 icazə faktiki olaraq aktivdir".

İcazələrlə bağlı müddətin uzadıldığını xatırladan E. Niftəliyev qeyd edib ki, həmin müəssisələrin məsul şəxsləri aldıqları icazələrə redaktə edə bilərlər: "Ola bilsin ki, icazə alınan şəxs 1 həftə və ya 10 gün ərzində məzuniyyətə göndərilib həmin şəxsin qeydiyyat statusunu dəyişmək və ya digər əməkdaşla əvəz etmək olar. Həm SMS, həm də icazələrlə bağlı sistem qısa müddətdə yaranmasına baxmayaraq, proseslərə uyğun olaraq hər iki sistemdə təkmilləşmələr həyata keçirilib".

Qurum sözçüsü vurğulayıb ki, bu müddət ərzində 8103 qısa nömrəsinə 13 milyon 761 min sms göndərilib: "Bunlardan təqribən 4 milyon 153 mini, yəni 30 faizi aidiyyatı olmayan məzmunla göndərildiyindən təsdiq cavabı almayıb. Bu qədər maarifləndirmə işləri aparılmasına, video təlimatların mütəmadi olaraq yayımlanmasına baxmayaraq, hələ də kodu düz yazmayan, istəyini sözlə ifadə etmək istəyən şəxslər var. Belə hallarda vətəndaşlarımız "Asan Xidmət" in 91-08 Çağrı Mərkəzinə müraciət etməklə suallarına cavab tapa bilərlər".

***Nailə Məhərrəmova***

# Neft bazarı nə vaxt sabitləşəcək?

Mayın 1-dən qüvvəyə minəcək OPEC + neft hasilatının azaldılması sazişi neftin dünya bazarında qiymətinin bir qədər sabitləşməsinə kömək edəcək. SİA-nın xəbərinə görə, bunu Rystad Energy-nin baş analitiki Kristofer Peydj açıqlayıb. O bildirib ki, WTI markalı neftlə bağlı yaşananların növbəti dəfə təkrarlanması gözlənilmir: "Ötən gün gördüklərimiz anbarların demək olar ki, dolu olması və koronavirus səbəbindən tələbin düşməsi ilə izah edilir. Satıcılar göstərilən müqavilə üzrə neftin fiziki tədarükünə görə təzyiq altında qaldıqları üçün nefti mənfi qiymətlərlə satdılar".

Analitik qeyd edib ki, yaxın iki ayda neftə olan tələb tədricən bərpa ediləcək. Onun sözlərinə görə, apreldə əldə edilən OPEC + neft hasilatının azaldılması sazişi də bu iş də öz rolunu oynayacaq: "Tələbatın bərpa olunacağına inanırıq. Bu, iyun və iyul aylarında icra ediləcək müqavilələrə təsir göstərəcək. Mayın 1-də qüvvəyə minən OPEC + sazişi də bazarların bir az da olsa sabitləşməsinə kömək edəcək". Xatırladaq ki, ötən gün WTI markalı neft (may ayında çatdırılma ilə) tarixdə ilk dəfə olaraq mənfi dəyərə düşərək NYMEX əmtəə bazarında qiyməti bir barel üçün mənfi 40,32 dollara çatmışdı.

***Nailə***

# Son 24 saat ərzində İranda 1297 nəfər virusa yoluxub



Bu günə olan məlumata əsasən İranda koronavirusa yoluxanların sayı 84 min 802 nəfərə çatıb. AZƏRTAC xəbər verir ki, bu barədə məlumatı İranın Səhiyyə Nazirliyinin mətbuat katibi Kiyanuş Cahanpur verib. O bildirib ki, son 24 saat ərzində 1 297 nəfərin koronavirusa yoluxması faktı aşkarlanıb, 88 nəfər isə ölüb. Ölənlərin ümumi sayı isə 5 min 297-yə çatıb.

Bununla yanaşı xüsusi xəstəxanalarda müalicə alaraq sağalanların sayı 60 min 965 nəfərə çatıb. Bu arada Ümumdünya Səhiyyə Təşkilatı İrana tibbi maska və digər tibbi preparatlardan ibarət dəyəri 4 milyon dollar olan humanitar yardım göndərib. Təşkilatdan bildiriblər ki, bu ölkəyə əlavə yardımlar da göndəriləcək.

İranın məhkəmə hakimiyyəti açıqlama verərək nəzərə çatdırıb ki, koronavirus pandemiyası ilə əlaqədar olaraq bu günə kimi 100 min məhbus azadlığa buraxılıb. Onlardan 1000 nəfəri İrana qarşı casusluqda ittiham edilərək həbs olunan xarici dövlətlərin vətəndaşlarıdır.

# "ATƏT yenə baş qatmaqla məşquldur"

"ATƏT yenə baş qatmaqla məşquldur". Bunu SİA-ya politoloq Zaur Məmmədov deyib. "Görüşdən imtina etmək olmazdımı? Bəlkə cəbhədə ermənilərin provokasiyalarını bəhanə etmək və ümumiyyətlə, Paşinyanın destruktiv siyasətini göstərməklə Mnasakyanı qapı (bu dəfə monitorun) arxasında qoymaq olardı? Sabah Azərbaycan və Ermənistan XİN rəhbərlərinin video-konfrans formatında görüşü olacaq. Bugünkü hadisələr bir daha göstərdi ki, postneft erasında dünyada "su müharibələri" olacaq. Cənubi Qafqazda ən pis vəziyyətin bizdə olmasını nəzərə alsaq nəinki tarixi torpaqlarımızın qaytarılması, eyni zamanda indiki Ermənistan ərazisindəki bəzi rayonların da geri alınması məqsədimiz olmalıdır. Həm Qarabağı, həm də digər torpaqları geri qaytarmaq bizim üçün hava və su kimi lazımdır. Aqrar sahədən tutmuş, sənayenin müxtəlif sahələrinə qədər hər yerdə suya ehtiyac var. Eyni zamanda, əsas hədəflərimiz Xəzər dənizindəki və bölgədəki digər su vadilərindən effektiv istifadə etmək olmalıdır", - deyə, Z.Məmmədov fikrini tamamlayıb.

***Ceyhun Rasimoğlu***

# 2020-ci ildə Avropa İttifaqının iqtisadiyyatı 10 faiz azala bilər



***Koronavirusun yayılması ilə bağlı böhran səbəbindən 2020-ci ildə Avropa İttifaqının iqtisadiyyatı 10 faiz geriləyə bilər. AZƏRTAC Reuters agentliyinə istinadla xəbər verir ki, bu barədə Avropa İttifaqı ölkələrinin səfirləri ilə məsləhətləşmələrdən sonra Avropa Komissiyasının nümayəndəsi bildirib.***

Avropa Komissiyası fevral ayının ortalarında verdiyi sonuncu rəsmi iqtisadi proqnozunda koronavirus pandemiyasının dünya iqtisadiyyatına təsirinin cüzi olacağını, bu təsirin artıq 2020-ci ilin birinci kvartalında aradan qaldırılacağını, nəticədə Avropa İttifaqında iqtisadi artımın saxlanılacağını, lakin bunun 1,6-1,4 faiz zəifləyəcəyini iddia etmişdi. Mart ayında Avropa Komissiyası 2020-ci ildə artımın ümumdaxili məhsul həcmində 1-2,5 faizlik enişlə müşayiət olunması ssenarisini nəzərdən keçirsə də, bu rəqəmlər rəsmən təsdiqini tapmamışdı.

# Sosial şəbəkə viruslarının növbəti biznesi - “koronavirus məhbusları”

## Yaxud bu virusların “dəstəkçisi” - Sevinc Osmanqızı nə istəyir?

***İnsanın savadsızlığına da, mədəniyyətsizliyinə də, cahilliyinə də göz yumub birtəhər susmaq olar, amma əxlaqsızcasını aşırı dərəcədə olan böhtanları eşidib ona laqeyd qala bilmirsən.***



Əgər sosial şəbəkələrdə Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı və... bu sosial şəbəkə virusları cinayəti demokratiya, əxlaqsızlığı şəxsi həyat, xəyanəti fəaliyyət azadlığı kimi təqdim etməyi “siyasi mübarizə” adlandıraraq özlərini “əsl müxalifətçi” hesab edirlərsə, niyə də susmalıyq?. Çünki bu o fərdlərdir ki, Azərbaycanı müxtəlif bəhanələrlə tərk edib xaricə sığınan, özlərini “demokrat”, “müxalifətçi”, “siyasi mühacir”, “jurnalist” adlandıraraq ölkəmizə qarşı qarayaxma kampaniyası aparan, ermənipərəst dairələrin, bəlli güc mərkəzlərinin siyasi sifarişini yerinə yetirərək, ölkə Prezidentinin apardığı uğurlu və düşünülmüş siyasətini “qara görən” o kor gözlərinə, boş “başlarına” yeritməliyik. Əgər bu gün bütün dünyanı ağuşuna alan koronavirus epidemiyasının tüğyan etdiyi bir zamanda insanların salamlığını qorumaq üçün “Evdə qal” kampaniyasını aparırsa və mənəm-mənəm deyən dövlətlərdə insan itikisinin yüksək olduğu halda, Azərbaycan dövlətinin düzgün və düşünülmüş siyasəti nəticəsində insan itikisinin az sayda olduğunu Beynəlxalq Səhiyyə təşkilatı da bildirir və koronavirusa yoluxan ölkələr də bu təcrübədən istifalə edirlərsə, o zaman bu sosial şəbəkə virusları evdə qalmağını “ev dustaqlığı” kimi niyə qələmə verirlər? Və yaxud da bu günlərdə bu viruslardan olan Əli kərimli sosial şəbəkədə bildirir ki, “hətta mobil telefonum da ev dustağına” çevrilib”. Onun sözünə “qüvvət” verən satqınların “emlemi” Gültəkin Hacıbəyli də deyir ki, “hazırda hamımız ev dustağıyıq, mən də, “konslagerdə” yaşayırıq” deməleri həyasızlığın, doğurdan da hansı səviyyəsində olması deyilmi?.

Dərdiniz başqa dərddir. Nə əl-qolunuz bağlanıb, nə də “konslager”də yaşayırsınız. Axı hər gün səhər açılanda “bu gün necə söyüm?” sualına cavab axtara-axtara koronavirusla bağlı qanunlara əməl edilməyən radikal müxlifətçilərin cərimələnlərin və həbs edilənlərin azad olunması üçün “koronavirus məhbusları”na azadlıq” tələbini irəli sürməyi bu günkü gündə ən yaxşı biznes olduğunu düşünüblər. Bu yerdə ay NANKOR və BƏDBƏXTLƏR deməyin lap yeridir.

Bu “axtarışda” orlanlardan biri də o “biçarə” Sevinc Osmaqızıdır ki, özünü az qala Tomrislə Burla Xatun obrazlarını cəmləşdirərək “mərhəmətli, savadlı, şəfqətli, amma qətiyyətli, sarsılmaz və iradəli qadın” obrazı yaratmağa çalışır. Məqsədi həmişə Azərbaycanın inkişafı, tərəqqisi, insanlarımızın inkişaf etmiş Qərb dövlətlərindəki kimi yaşaması deyil. Qətiyyən, o tam əksini arzulayır: qiyam, üsyan, vətəndaş müharibəsi, qan gölü. Özü də son zamanlar dünyanı ağuşuna alan koronavirusun tüğyan etdiyi bir zamanda “Osmanqızı TV” kanalında etdiyi etdiyi çağırışlarında da aydın şəkildə vətəndaş müharibəsinin olması arzusunda olduğunu aydın şəkildə bilddirir. Ancaq bu arzu da arzu olaraq qalacaq və bu virusla birlikdə o dünyalıq olacaqsan, İnşallah!

### Sevinc Osmanqızı “vətən yanğısı”nı biznesə çevirib

S.Osmanqızı bunu özünün “TV”-sində aydın şəkildə göstərərək, guya “vətən üçün ağlayır”. “Bu da bir bacarıqdır, hər kəs ağlaya bilməz” - deyir. Doğru deyirsən, canlı efirlərində ağlamsınmağın növbəti “biznes”in yoludur. Məhz bu gün koronavirusun tuğyan etdiyi bir zamanda ən yaxşı məqam düşüdüyünü görərək, sosial şəbəkə viruslarına “dəstək” olmaq üçün Sevinc Osmanqızı “Osmanqızı TV” adı ilə “Youtube” kanalı üzərindən yayımladığı videolar, canlı bağlantılar, apardığı müzakirələr, səslən- dirdiyi qərəzli fikirlər də bu qəbildəndir. Demə bu koronavirus sosial şəbəkə viruslarının əlinə, doğurdan da “göydəndüşmə imiş”. Bu gün Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli, Gültəkin Hacıbəyli “Evdə qal” kampaniyasını “mitinq” çağırışı ilə əvəz edərək bildirirlər ki, “bu gün ev konslagerində yaşayırıq” və hamını “evdə yqalmağa yox, küçələrdə qalmağa” səsləmələri yaşadıqları bu ölkənin qanunlarını pozduqlarının bədəlini düşünmürlər? Ancaq qanun hamıyı şamil edilir - əxlaqlıyı da , əxlaqsıza da, siyasətçiyə də, sadə vətəndaşa da. Və bu gün özünü tərəfsiz, “xalq fədaisi” kimi Azərbaycan cəmiyyətinə sırımaq istəyən Sevinc Osmanqızı da həmişə olduğu kimi bu gün də radikal çağırışlar etməkdədir. Soruşmaq istərdik: Neyləmisən? Sən hansı haqla özünü “xalqın fədaisi” hesab edirsən? Və aydın görünür ki, AXCP sədri Ə.Kərimli, onun iradəsi altında fəaliyyət göstərən “Milli Şura”nın sədri Cəmil Həsənli, həmçinin “Milli Şura”nın Koordinasiya Mərkəzinin üzvü, sabiq deputat Gültəkin Hacıbəyli “Osmanqızı TV”nin “parlayan ulduzlarına” çevriliblər. S.Osmanqızı adıçəkilən şəxslərə efir verməklə, onların fikirlərini ictimai rəyə sırımaqla yanaşı, AXCP sədrini açıq-aşkar himayə də edir. “Bitərəf jurnalist” AXCP sədrinə, yaxud da “Milli Şura” funksionerlərinə haqlı sual ünvanlamaq üçün efirə qoşulan, obyektiv münasibət bildirmək istəyən tamaşaçıların səsini dərhal azaldır, guya bağlantıda problem var bəhanəsi ilə onların səsini kəsir, fikir bildirməsinə mane olur.

### İlqar Məmmədov: “Sevinc Osmanqızı efirində millәti yalanlar tirajlamaqla barmağına dolayır”

“REAL” Partiyasının sədri İlqar Məmmədov “Facebook”dakı şəxsi profilində status yazaraq, S.Osmanqızını xəbərçilikdə, Natiq Cəfərli, Erkin Qədirli, Azər Qasımlı kimi “REAL”-çılar barədə zaman-zaman saxta və boş ittihamlar irəli sürdüyünü diqqətə çatdıraraq, onun “bir partiyanın mətbuat katibi” olduğunu müəyyən etdiyini vurğulayıb: “S.Osmanqızı milləti yalanlar tirajlamaqla barmağına dolayır. Xalqın üzünə danışmağı bacaran bir “jurnalist” heç zaman xalqın dərdinə yaramaz. Bir də bu viruslar dünyanı ağışuna alan viruslardan da daha pisdir. Əxlaq da yaxşı xüsusiyyətdir. Görmürəm! Çünki S.Osmanqızı “vətən yanğısı”nı biznesə çevirib və canlı efirlərində ağlamsınaraq “Vətən üçün çalışıram” desə də, yaşamını heç də pis təmin etmir. O, yaxın perspektivli məqsədinin ABŞ vətəndaşlığı almaq, uzaq perspektivli hədəfinin isə Leyla Yunus qədər pul qazanmaq olduğunu etiraf etməyib - amma bilin ki, belədir”. Bax, bunu siyasi həmfikirlərin deyir, bax, budur sifətiniz.

### Avropada ömrün sürüdüyü troqlodit düşüncəlilər...

Avropa ölkələrində ömür sürən, daha doğrusu, ömrün sürüdüyü troqlodit düşüncəlilərə gəldikdə isə, onların hamısı biçarələrdir, bədbəxtlərdir. Qyri-adekvat Mirzəli, Piriyev, Ceffri Məmmədov, Sadıqlı və ilaxırlaradək. Bu adamların yeganə, əsas və ümdə məqsədləri “qrant layihəsi udmaq”dır. Bu adamlar ermənilərdən də betərdir, çünki mühacirət statistikası baxımından Azərbaycanı qat-qat üstələyən, iqtisadiyyatı iflic, siyasəti zəlil durumda olan Ermənistanın xarici ölkələrdəki səfirləri qarşısında nə onların Orduxanı primitiv “etiraz aksiyası” adlı şou düzənləyir, nə Vidadi İsgəndərlinin bənzəri siyasəti küçə söyüşlərinin məcmusu kimi anlayaraq danışır, nə də Cəfəi və ya Piriyev kimi primitiv subyektlərin analoqları ağızlarını qrant yoluna qoyub hərzələmirlər.

Ancaq bu “siyasi mühacirlər” ayrı məxluqatlardır. Əllərində zövqsüz və orfoqrafiya səhvləri ilə dolu plakatlar tutub yüyürürlər Azərbaycan səfirliklərinin qarşısına, qışqırırlar, qiyyə çəkirlər, hırıldayırlar, söyürlər, sonra da bu sarsaqlığın videosunu çəkib sosial şəbəkələrdə paylaşırlar. Dava Vətən, demokratiya, insan haqları uğrunda yox, Azərbaycanı hədəfə almış təşkilatlardan sədəqə qismində qrant əldə etmək, “oturum” almaq, pul qazanmaqdır. “Siyasi fəal”, “demokratiya mübarizi”, “hüquq müdafiəçisi” adını ucuzlaşdırıb küçə şousunun verbal subyektlərinə döndərənlər oyun oynayır, oyunbazlıq edirlər. Onlar Azərbaycanı dünyanın ən pis ölkəsi, ən qəddar diktaturası, ən mağmın və qorxaq adamların yaşadığı yer kimi tanıtmaq istəyirlər. Bir sözlə, “ən, ən, ən” ölkə imici qazandırmağa çalışırlar, vətənimizə. Bu isə artıq siyasi mübarizə yox, psixi sapıntıya çevrilmiş mənəvi xəyanət, iyrənc patologiya, mövqesizliyin vakuum şəraitindəki etalonu da sayıla bilər.

Bəli, Azərbaycanın “siyasi mühacirləri” “ad qazanıb”. Heç bir erməni (!) ölkəsindən ən sərt narazılıqda olsa belə, Ermənistanın xaricdə pis obrazını formalaşdırmağa can atmır. Yaxud da gürcülər də belədir - qırğızlar, moldovanlar, ruslar, belaruslar, türkmənlər və s. də.

Siyasi mühacirlərimiz sutka boyu “layihə, ah, layihə” deyib mələşmək və sonra da “qaniçən rejim”ə söyməklə xalqın nifrətinə düçar olurlar. Və istər radikal müxalifətin, istər “Milli Şura” deyilən qurumun, istərsə də Sevinc Osmanqızı və digər “siyasi mühacir”lərin Azərbaycan xalqına heç bir aidiyyatı yoxdur. Onlar hətta bütün əhali üçün böyük təhlükə mənbəyi olan koronavirus infeksiyasından öz çirkin məqsədləri üçün istifadə etməkdən çəkinməyən bədbəxt və rəzillərdir. irlər. Açığı, onların proseslərə məlum yanaşması vətəndaş kimi məndə belə bir təəssürat yaradır ki, radikal müxalifət təmsilçiləri öz məntiqlərində koronavirusa yoluxublar. Azərbaycan xalqı bu ünsürləri çoxdan rədd edib və belələrinə ölkəmizin siyasi səhnəsində yer yoxdur. Eləcə də, xaricdəki antiazərbaycançı qüvvələrin əlində alət, “oyuncaq” olan sapı özümüzdən olan baltalara cəmiyyətimizdə böyük nifrət var. Çünki erməni lobbisinin pulu ilə öz dövlətinə qarşı şər və böhtan kampaniyası aparanlara münasibət belə olmalıdır. Onlar hər hansı iddia, “bəyanat” səsləndirərkən yalnız özləri deyib-özləri eşidirlər. Cəmiyyətimizdə onların heç bir dayağı yoxdur və bundan sonra da olmayacaq”.

***Rəfiqə Hüseynova***



## Martda ölkəyə gətirilən avtomobillərin sayı açıqlanıb

Martda Azərbaycana idxal edilən avtomobillərin sayı 3945 ədəd, dəyəri isə 46 milyon 742 min ABŞ dolları olub. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, ölkəyə gətirilən avtomobillərin 2-si sürücü daxil olmaqla 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitəsi, 3700-ü əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər motorlu nəqliyyat vasitəsi, 231-i yük daşımaq üçün motorlu nəqliyyat vasitəsi, 12-si isə xüsusi təyinatlı motorlu nəqliyyat vasitəsidir.

## Bakıda oğurluqla məşğul olan şəxslər tutulub

Bakıda oğurluqla məşğul olan şəxslər polis tərəfindən yaxalanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oğurluq etdiyinə görə tutulmuş E.Mirzəyevin ətrafında Nəsimi Rayon Polis İdarəsinin 22-ci polis şöbəsinin əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onun rayon



ərazisindəki mağazaların birindən 5 min manat dəyərində geyim əşyaları və aksesuarlar, bir çay evindən isə 1000 manat dəyərində məişət əşyaları oğurlaması da müəyyən edilib.

Oğurluq etdiyinə görə tutulmuş V.Zülfüqarovun ətrafında Xətai Rayon Polis İdarəsinin 37-ci polis şöbəsinin əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onun aprelin 16-na keçən gecə rayondakı çay evlərinin birindən 3 min manat dəyərində kombi, digər çay evindən isə 600 manat dəyərində televizor oğurlaması da müəyyənləşdirilib.

## Koronavirus böyrək çatışmazlığı da yaradır?

Bütün dünyanı cənginə alan koronavirusun tənəffüs yollarını hədəfə aldığı deyilsə də, ABŞ-da renimasiya şöbələrində müalicəsi aparılan COVİD-19 xəstələrində böyrək çatışmazlığı əlamətinin üzə çıxması orada hemodializ aparatlarına olan tələbatı artırıb.




SİA-nın xəbərinə görə, “New York Times” qəzetində yer alan yazıda da reanimasiya şöbələrində koronavirus müalicəsi aparan xəstələrdə böyrək çatışmazlığının gözlənilməz artması da qeydə alınıb. ABŞ-ın Yale Universitetinin nefrologiya mütəxəssisi Alan Kliger də koronavirus xəstələrinin 20-40 faizində böyrək çatışmazlığının olduğunu təxmin edib. O xəstəxanalarda hemodializ aparatlarının çatışmazlığını qeyd edib.

***Nailə Məhərrəmova***

# Azərbaycan demokratiya, insan huquqları və əsas azadlıqlar ilə bağlı ohdəliyinə sadiqdir

***Azərbaycan demokratiya, insan huquqları və əsas azadlıqlar ilə bağlı ohdəliyinə sadiq qaldığını bir daha numayiş etdirmişdir. O, inkişaf prosesində olan elektron məhkəmə sistemi ilə bağlı ətraflı məlumat vermişdir. Mustəqil fəaliyyəti və huquqi xidmətlərin keyfiyyətli olmasını təmin etmək ucun Vəkillər Kollegiyasında islahatlar aparılmışdır. Azərbaycan işgəncələrə qarşı mubarizənin aparılması sahəsində Avropa Şurası və Birləşmiş Millətlər Təşkilatı ilə fəal şəkildə əməkdaşlıq etmişdir və işgəncə ilə əlaqədar cinayət məsuliyyətini nəzərdə tutan qəti dozumsuzluk siyasəti həyata kecirmişdir.***

Azərbaycan Avropa İnsan Huquqları Məhkəməsi qarşısında daşıdığı ohdəliklərə əməl etmişdir. Avropa İnsan Huquqları Məhkəməsi milli məhkəmələrin yekun qərarına istinadən insan huquqları pozuntusu aşkarladıqda həmin qərarlar milli qanunvericiliyin tələblərinə uyğun şəkildə nəzərdən kecirilmişdir.

Milli azlıqların huquqlarının mudafiəsi də, həmcinin Hokumətin əsas prioritetlərindən biri olmuşdur. Digər tədbirlər ilə yanaşı erməni dili də daxil olmaqla azlıqların dillərində televiziya və radio proqramları yayımlanmışdır.

Azərbaycan son 15 il ərzində ifrat yoxsulluğun aradan qaldırıldığını və mutləq yoxsulluğun 5,4 faizədək azaldığını vurğulamışdır. UDM 3.2, əhalinin umumi gəliri isə 9.8 dəfə artmışdır. İşsizliyin səviyyəsi 5 faizədək azalmışdır. Regional inkişaf proqramları başlıca olaraq regionları əhatə etmiş, o cumlədən 8,000 km uzunluğunda yollar, 300 korpu və tunel, əhalinin istifadəsi ucun nəzərdə tutulmuş 52 km uzunluğunda qaz boruları, 8,000 məktəb, 300 bağca və 451 xəstəxana inşa və bərpa edilmişdir. Təxminən 487 kənd tipli qəsəbədə 700,000 nəfər təmiz su techizatı ilə təmin olunmuşdur.

Azərbaycan yaxın gələcəkdə Milli Məclis tərəfindən "Sağlamlıq imkanları məhdud şəxslər haqqında" qanun layihəsinin qəbul olunacağının gozlənildiyini bildirmişdir. Azərbaycan əlillik dərəcəsinin muəyyənləşdirilməsi ucun xəstəliklərin beynəlxalq təsnifatından istifadə etmişdir.

Azərbaycan həbsdə olan şəxslərin huquq mudafiəciləri ilə hec bir manea olmadan əlaqə yarada bilməsini təmin etmək ucun zəruri tədbirlərin gorulduyu qeyd etmiş, dovlətin sərbəst toplaşmaq azadlığı və birləşmək huququnun icrasını təmin etdiyini və qanuni numayişlərin kecirilməsinə hec bir mudaxilə olmadığını bildirmişdir.

Azərbaycan, həmcinin insan alveri ilə bağlı 148 faktın aşkarlandığını qeyd etmişdir. Həbsdə olan 47 azyaşlı ilə bağlı muntəzəm qaydada monitorinq aparılmış və onların gələcəkdə cəmiyyətə yenidən inteqrasiyasına komək etmək məqsədilə onlar ucun komputer əsaslı təlim imkanları yaradılmışdır. İnteraktiv dialoq zamanı verilən aşağıdakı tovsiyələr Azərbaycan tərəfindən nəzərdən kecirilərək qəbul edilmişdir:

-İnsan hüquqlarına dair beynəlxalq sazişlərin ratifikasiyasının musbət dinamikasını qoruyub saxlamaq;

- İnsan hüquqlarına dair milli qanunvericiliyin insan hüquqlarına dair beynəlxalq standartlara uyğunlaşdırılmasını davam etdirmək;

-Milli qanunvericiliyi Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq sazişlərə uyğunlaşdırmaq;

-İnsan hüquqları haqqında milli qanunvericiliyi insan hüquqlarına dair beynəlxalq standartlarla uyğunlaşdırmağa davam etmək (İordaniya);

-Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları uzrə Ali Komissarlığının hesabatın verilməsi və tədbirlərin gorulməsi uzrə milli mexanizmlərə dair təlimatına uyğun olaraq insan hüquqları ilə bağlı məsələlərin uyğunlaşdırılması, icrası, onlara dair hesabatın verilməsi və tədbirlərin gorulməsi üçün milli mexanizm yaratmaq;

-Dovlətin beynəlxalq insan hüquqları ilə bağlı qəbul etdiyi tovsiyələrin icrası uzrə tədbirlərin gorulməsi üçün daha geniş muəssisələrarası mexanizmin yaradılması ilə milli mexanizmləri gucləndirmək;

- BMT-nin sazişlərin icrasına nəzarət orqanları ilə bağlı seckilər üçün milli namizədi açıq və şəffaf proses əsasında təyin etmək;

- Təhlukəsiz, təmiz, sağlam və dayanıqlı muhitdən istifadə ilə əlaqədar insan hüquqları ilə bağlı ohdəliklər uzrə Xüsusi Məruzəçiyə dəvət gondərmək;

- İşgəncə və qəddar rəftarın digər formalarına qarşı mubarizə ilə bağlı qəbul edilmiş tovsiyələrin yerinə yetirilməsi istiqamətində işləri davam etdirmək;

- İnsan Hüquqları Şurasının mexanizmləri ilə əməkdaşlığı davam etdirmək;

Heydər Əliyev 1998-ci ilin dekabrında BMT-nin Ümumdünya insan hüquqları Bəyannaməsinin 50 illik yubileyi tədbirində bu barədə danışarkən demişdi: "Ölüm hökmünün ləğv olunması hansısa bir cinayətkara rəhm etmək məqsədi daşımır. Bu, ümumbəşəri, ümumxalq əhəmiyyətinə malik bir məsələdir. Ölüm hökmünün ləğv olunması onu göstərir ki, respublikamız, müstəqil Azərbaycan dövləti humanist siyasət aparan bir dövlətdir". Bu faktlar və mülahizələr bizə - Azərbaycan ədliyyəsinin hakimlər korpusuna, sözün həqiqi mənasında, bir dərs idi. Heydər Əliyev çox yaxşı bilirdi ki, müstəqil məhkəmə hakimiyyəti yaratmadan mükəmməl siyasi sistem qurmaq mümkün deyil. Belə məhkəmə hakimiyyəti yaratmaq üçün isə ölkədə genişmiqyaslı məhkəmə-hüquq islahatları aparılmalı idi. Məhz ona görə də Heydər Əliyevin təşəbbüsü ilə 1997-ci ildə zəngin demokratik ənənələri olan ölkələrin təcrübəsinə əsaslanan "Məhkəmələr və hakimlər haqqında" Qanun qəbul edildi. Həmin qanunun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər haqqında proqram xarakterli fərman imzalandı və ölkəmizdə məhkəmə quruluşunun və məhkəmə icraatının mahiyyətcə yeni modelinin bərqərar edilməsi prosesinə başlanıldı.

Ölkəmizin məqsədi hüququn aliliyinin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsini təmin edən demokratik hüquqi dövlətin qurulması, bu sahədə Avropa dövlətlərinin zəngin təcrübəsindən istifadə edilməsidir. Son 10 ilə yaxın müddətdə Azərbaycanda hakimlərin yeni şəffaf seçki sistemi fəaliyyət göstərir. Biz bu müddətdə Avropa Konvensiyasını ənimsəyib, Avropa Məhkəməsinin presedent qərarlarını dərindən öyrənib, onları şərh etmək qabiliyyətinə malik hakimliyə namizədlərin hazırlanmasına və hakim vəzifələrinə seçilməsinə nail olmuşuq. Bundan başqa, tədbirdə belə bir fikir də səsləndirildi ki, Azərbaycanın Ali Məhkəməsinin təcrübəsi Avropa Konvensiyasını birbaşa tətbiq edən məhkəmələr üçün örnəkdir. Ali Məhkəmə ədalət mühakiməsini Avropa Konvensiyasına uyğun və öz diskresiyasına əsaslanaraq həyata keçirir. Avropa Məhkəməsinin ölkə ilə bağlı qərarlarından sonra milli məhkəmələrin qərarlarına yenidən baxır və bu zaman yol verilmiş səhvlərin təkrar edilməsinin qarşısını almağa, bunun üçün hakimlərin Avropa Məhkəməsinin qərarlarına yaradıcı yanaşmalarına, onları xüsusi dəqiqliklə öyrənmələrinə çalışır. Xatırladılmalı daha mühüm məqamlardan biri də budur ki, Prezident İlham Əliyev Avropa Şurası Parlament Assambleyasındakı çıxışında Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyinin prioritetlərini müəyyən edərkən bu məqamları önə çəkmişdi: Korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq vasitəsilə qanunun aliliyinin gücləndirilməsi, mədəniyyət baxımından fərqli cəmiyyətlərin qarşılıqlı hörmət və anlaşma əsasında konsolidasiyası, sosial birliyin, insan hüquq və azadlıqlarının təmin edilməsi, gənclərin insan hüquqları və demokratiya məsələləri üzrə maarifləndirilməsi. Əslində, bu prinsiplər on illərdir ki, həm ulu öndərimizin, həm də möhtərəm dövlət başçımızın siyasi faliyyətinin əsas istiqamətlərini təşkil edir.

Ümummilli lider Heydər ƏLİYEV demişdir:" Hər bir şəxs Konstitusiya və qanunlara dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir."

Ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və Prezident İlham Əliyevin idarəetmədəki qətiyyəti sayəsində sürətli müasirləşmə yolu tutan müstəqil Azərbaycan Respublikası bu gün dünyanın inkişaf etməkdə olan dövlətlərinin önündə getməyi ilə xüsusi bir nümunə formalaşdırır. Beynəlxalq aləmdəki dostlarımız və tərəfdaşlarımız səmimi şəkildə etiraf edirlər ki, Azərbaycanın bütün uğurlarının təməlində ölkədə reallaşdırılan hərtərəfli islahatlar kompleksi dayanır. Təbii ki, bu islahatların sırasında ən çox nəzərə çarpan və müsbət nəticələr verən sahələrdən biri də məhkəmə-hüquq sistemində böyük uğurla həyata keçirilən və müasir dövrün tələblərinə cavab verən innovativ tədbirlərdir. Çox maraqlıdır ki, bizdə bu sahədə aparılan yeniləşmələr öz müsbət nəticəsini verdikcə Avropada həmin islahatları artıq Azərbaycanda uğurla reallaşdırılan məhkəmə-hüquq tədbirləri adlandırırlar. Məhz ölkəmizdə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi sahəsində həyata keçirilən islahatlar, ulu öndər Heydər Əliyevin rəhbərliyi altında görülmüş möhtəşəm işlər, Prezident İlham Əliyevin bu sahənin dünya təcrübəsi səviyyəsinə qaldırılması üçün atdığı addımlar, məhkəmələrin və bütövlükdə ədliyyə strukturlarının maddi-texniki bazasının daha da möhkəmləndirilməsi məqsədilə reallaşdırılan tədbirlər öz səmərəli bəhrələrini verməkdədir.

**Vahid Ömərov**
**Fəlsəfə üzrə fəlsəfə doktoru,dosen**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

22 aprel

Son səhifə


## Neymar “Barselona”ya keçsə, 30 milyon avro itirəcək



**PSJ-nin futbolçusu Neymar “Barselona”ya keçəcəyi təqdirdə, maaşında ciddi azalma olacaq. Qol.az-ın “Mundo Deportivo”ya istinadən yaydığı xəbərə görə, belə ki, braziliyalı hücumçu Paris klubunun yeni müqavilə təklifini qəbul edəcəyi təqdirdə, ilinə 52 milyon avro qazanacaq.**

28 yaşlı hücumçu “Barselona”ya transfer olunmaq istəyəcəyi təqdirdə isə Kataloniya təmsilçisi ona 20-22 milyon avro maaş verəcək. Bu isə onun 30 milyon avro itirəcəyi deməkdir. Qeyd edək ki, Neymar 2017-ci ildə məhz “Barselona”dan 222 milyon avroya PSJ-yə transfer olunub.

## Hadisənin bahalı həyatı



**Türkiyəli müğənni Hadisə konsertlərinin birində çəkdirdiyi şəkilləri sosial şəbəkədə yayımlayıb. SİA-nın məlumatına görə, onun konserti zamanı geyindiyi paltarı izləyicilər tərəfindən müzakirələrə səbəb olub.**

Sosial şəbəkə istifadəçiləri sənətçinin geyiminin qiyməti və markası ilə maraqlanıblar. Araşdırmamız zamanı bəlli olub ki, Hadisənin geyindiyi tulum və blazer “Dundas World” markasına aiddir. Blazerin qiyməti 4233, tulum isə 1397 manatdır.

## 73 yaşlı kişi palata yoldaşını boğub öldürdü

**Rusiyanın Krasnodar şəhərində yerli xəstəxanaların birində müalicə alan 73 yaşlı kişi 39 yaşlı palata yoldaşını boğaraq öldürüb. Bu barədə 360tv.ru xəbər yayıb. Yaşlı kişinin sözlərinə görə, o, evdə olduğunu, qonşusunun isə onun mənzilinə soxulduğunu düşünüb. Buna görətəqaüdçü onun üstünə cumubvə boğub. Hay-küyə gələn həkimlər qurbanakömək edə bilməyiblər.**

## Aslı ilə Kərəm ayrıldı

Türkiyəli aktrisa Aslı Enver eks-basketbolçu Kərəm Tunçeri ilə ayrılıb. Axşam.az “İkinci sayfa”ya istinadən xəbər verir ki, Tunçerinin sosial media fenomenləri tərəfindən ifşa olunan mesajlarından sonra sənətçi bir aylıq münasibətini



yekunlaşdırıb.

Ayrılıqda Aslının ailəsinin “Bu münasibət sənə görə deyil” sözlərinin də təsiri olduğu bildirilib. Aktrisa Kərəm ona zəng etməsin deyə telefonunda onun nömrəsini “qara siyahı”ya atıb. Qeyd edək ki, A.Enver bundan öncə uzun illərdir Murat Bozla sevgili idi.

## Nəsimi rayonunda evdən qızıl-zinət əşyaları oğurlanıb

***Nəsimi və Salyan rayonlarında oğurluqla məşğul olan şəxslər tutulublar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Nəsimi rayonu ərazisindəki evlərin birindən 1300 manat dəyərindəki qızıl-zinət əşyaları və qol saatı oğurlamaqda şübhəli bilinən Quba rayon sakini K.Babayev Rayon Polis İdarəsinin 20-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılıb.***

Salyan Rayon Polis Şöbəsinin əməkdaşları isə E.Rzayevin avtomobilindən 655 manat pul və sənəd oğurlamaqda şübhəli bilinən şəhər sakini Y.Nəzirovu yaxalayıblar. Hər iki faktla bağlı araşdırma aparılır.



## “Real” bu qapıçı üçün 50 milyon avro təklif edir

“Milan”ın qapıçısı Canluici Donnarumma “Real”a keçə bilər. “Tuttosport” nəşrinin yazdığına görə, Madrid klubu 21 yaşlı qolkiperlə maraqlanır. Bildirilib ki, La Liqa təmsilçisinin baş məşqçisi Zinəddin Zidan komandanın hazırkı qapıçısı Tibo Kurtuanın oyunundan narazıdır və alternativ variantlara baxır.

“Real”ın Donnarumma üçün 50 milyon avro ödəməyə hazır olduğu vurğulanıb. Qeyd edək ki, Donnarummanın İtaliya təmsilçisi ilə müqaviləsi 2021-ci ilin yayında başa çatır.



## Covid-19 ŞOK: Məşhur aktyor Koronavirusa görə bir ayağını itirdi!

**Koronavirusa yoluxan məşhur aktyor Nik Korderonun ayağı kəsilib. Bu haqda aktyorun həyat yoldaşı məlumat verib. O, aktyorun koronavirusun fəsadı sayəsində sağ ayağını itirdiyini bildirib. Bununla yanaşı aktyorun xəstəxanaya yerləşdirilən zaman sağ ayağında laxtalanma olduğunu və ayaq barmaqlarına qan işləmədəyini qeyd edib. Nik Kordero iki həftədir koronavirusla mübarizə aparır.**

## Bunu bilirdiniz?,- yemiş stressin dərmanıdır

İtaliyanın “La Stampa” qəzetində çıxan bir xəbərə görə, Fransa Tibb Elmləri Araşdırmalar İnstitunun elm adamları maraqlı araşdırma aparıblar. Alimlərin apardıqları təcrübələr zamanı məlum olub ki, yemişdəki antioksidantlar insanların stressə düşməsinin qarşısını alır. Təcrübələr zamanı məlum olub ki, yemiş “süperoksid”, “dismutaz” maddələri ilə çox zəngindir. Heyvanlar üzərində sınaqdan keçirilən bu maddə stress proteinlərini aşağı salıb. Yemiş yeyilərkən qandakı “SOD”un səviyyəsi də artıb. Bu isə insanlarda da stress proteinlərinin azalması anlamına gəlir. Stress proteinlərinin azalması isə insanların stressə düşməsi ehtimalını da əhəmiyyətli dərəcədə azaldır.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600